AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

QƏZƏNFƏR PAŞAYEV - 75

BAKI – 2013

REDAKTOR: **Muxtar KAZIMOĞLU (İMANOV)**
AMEA Folklor İnstitutunun direktoru,
filologiya üzrə elmlər doktoru

TƏRTİBÇİ: **Seyfəddin RZASOY**
AMEA Folklor İnstitutu Mifologiya
şöbəsinin müdiri, filologiya üzrə
fəlsəfə doktoru

Qəzənfər Paşayev – 75. Bakı, Elm və təhsil, 2013, 90 səh.

P 4603000000 Qrifli nəşr
N-098-2013

© Folklor İnstitutu, 2013

Muxtar KAZIMOĞLU

KƏRKÜK SEVDASI

Professor Qəzənfər Paşayevdən yazan müəlliflərin, demək olar ki, hamısı Kərkük məsələsinə, ötəri də olsa, toxunur. Təsadüfi deyil ki, müəlliflərdən biri Qəzənfər Paşayevin portret cizgilərini oxucuya ”Azərbaycandakı Kərkük” adı altında təqdim edir. Q.Paşayevdən yazanların Kərkük məsələsinə toxunmadan ötüşə bilməməsinin səbəbi məlumdur: Kərkük Q.Paşayev yaradıcılığının baş mövzusudur. Kərkükün Q.Paşayev yaradıcılığının baş mövzusuna çevrilməsinin nədən başlaması da çoxlarına bəllidir: Q.Paşayev İraqda tərcüməçiliklə məşğul olub. Bəli, bir neçə il İraqda yaşayıb-fəaliyyət göstərmək Kərkükdən yazmağa əsaslı bir zəmin yaradıb. Amma, məncə, bir müddət İraqda yaşayıb-fəaliyyət göstərmək Q.Paşayev Kərküknaməsinin vəsiləsi olsa da, başlıca səbəbi olmayıb. Bir müddət Kərkükdə çalışıb Kərküknamə yaratmaq mahiyyətcə “istədiyim yar idi, yetirdi Pərvərdigar” kəlamındakı məna və məzmuna daha çox uyğun gəlir. Yəni ürəkdə bir Kərkük sevdası vardı, Kərkükdə olmaq bu sevdanın əməli işlərlə ifadə olunmasına rəvac verdi.

Kərkük Q.Paşayev yaradıcılığında sadəcə predmet deyil. Kərkük Q.Paşayev yaradıcılığında baxış nöqtəsidir, xüsusi mövqedir. Məhz bu mövqe Q.Paşayevi Kərküklə yanaşı, Dərbənddən, Təbrizdən, Borçalıdan… da yazmağa sövq edir. Məsələ burasındadır ki, Q.Paşayev Azərbaycan türklərinin mənəvi varlığına bir bütöv kimi baxmaq istəyir. Bu bütövə coğrafi meyarla yanaşmağın heç də həmişə özünü doğrultmadığını nəzərə alan Q.Paşayev bizdən kənarda yaşayan elləri-

mizi məqsədli şəkildə, xüsusi diqqət mərkəzində saxlayır. Dərbənddən, Borçalıdan, Təbrizdən yazmaq, Kərkükə onlarla məqalə, neçə-neçə kitab həsr etmək, qınına çəkilib burnunun ucundan o tərəfi görməmək xislətinə, dolayı da olsa, etiraz etməyin bir formasına, üsuluna çevrilir.

Burnunun ucundan o tərəfi görməmək köhnənin dərdidir və ziyalılarımız zaman-zaman bu dərdin səbəbi və çarəsi barədə düşünüb-daşınmalı olublar. XX əsrin əvvəllərinin görkəmli ziyalılarından olan və ədəbiyyatşünaslığımız tarixində şərəfli yer tutan F.Köçərli 1909-cu ildə yazır: "Avamlığımızın ucundan vətənimizdə özümüzü qəriblər, evimizdə yadlar kimi saxlayırıq... İngilis, firəng, alman, yəhudi və qeyriləri haraya getsələr, hansı məkana düşsələr, oranı özlərinə mütəəlliq yer hesab edib, heç bir şeydən çəkinmirlər, heç kəsdən xof və ehtiyat etmirlər. Elm və bilik bir yandan, ev və məktəb tərbiyəsi başqa bir yandan onları cürətli, zirək, hünərli və hətta bir az... insafsız eləyir desək, səhv etmiş olmarıq".

XX əsrin əvvəllərində öz evimizdə – Şəkidə, Şirvanda, Qarabağda, Naxçıvanda özümüzü qərib kimi aparmışıqsa, deməli, evimizdən bir az kənara çıxanda miskin vəziyyətinə düşmüşük. Və bu vəziyyət öz evinin hakimi-mütləqi olan və özgə evində belə özünü dəryada balıq kimi hiss edən avropalılarla müqayisədə daha acınacaqlı təsir bağışlayıb. F.Köçərli bu acınacaqlı halı aradan qaldırmağın yolunu məktəbdə, maarifdə, yəni cəhalətdən, nadanlıqdan uzaqlaşmaqda görüb. Məsələyə F.Köçərlinin gözü ilə baxıb, ötən tarixə ümumi nəzər salsaq, qeyd etməliyik ki, XX əsrin ortalarından bu yana, Allaha şükür, məktəb-maarifdən elə bir korluğumuz olmayıb və bu gün özümüzü öz evimizdə az-çox cəsarət sahibi kimi hiss edə bilirik. Amma F.Köçərlinin toxunduğu məsələ

əslində bu gün də problem olaraq qalır. Problem ondadır ki, biz dünyanın, heç olmazsa, soydaşlarımız yaşayan ərazilərinə öz evimiz kimi baxmağı, rəsmi sərhədlərimizdən qıraqda mövcud olan mədəniyyətimizə sahib çıxmağı mənəvi tələbata çevirə bilmirik. Fikrimi bir misalla əsaslandırıb, Q.Paşayev barədə söhbətə qayıtmaq istəyirəm. Misal ondan ibarətdir ki, biz tez-tez XVI əsrin sonlarına qədər vahid Oğuz ədəbiyyatının varlığından və bu ədəbiyyata münasibətdə mənim-sənin (yəni Azərbaycan türkü, Türkiyə türkü, türkmən, qaqauz) söhbətinin əsassız olmasından danışırıq. Sözdən əməli işə keçəndə isə mənim-sənin məsələsi əməlli-başlı özünü göstərir və bu məsələ ədəbiyyat tarixinə aid mötəbər kitablara da yol tapa bilir. Belə olmasaydı, biz gözəl qoşmalar, gəraylılar müəllifi Yunis İmrəni (XIII əsr) öz şairimiz sayar, divan ədəbiyyatında heca vəznli şeirimizin tarixini Ş.İ.Xətaidən (XVI əsr) yox, məhz Y.İmrədən başlayardıq.

Y.İmrəni öz şairimiz saymaqda, bu böyük şairi ədəbiyyat tariximizə daxil etməkdə, heca vəznli yazılı şeir tariximizi bu böyük sənətkardan başlamaqda bizə mane olan nədir? Başqa maneələri deyə bilmərəm, bir maneə, məncə, Y.İmrənin "azərbaycanlı" olmamasıdır, daha doğrusu, Azərbaycanda doğulmamasıdır. Gəlin boynumuza alaq ki, ortaq Oğuz ədəbiyyatının görkəmli nümayəndələrini biz "azərbaycanlı" elan edib sonra ədəbiyyat tariximizə daxil etmişik. M.Füzulinin ata-babasının bir vaxt Azərbaycandan köçüb İraqa getməsi barədə mülahizələr həmin "azərbaycanlılıq" meylinin təzahürüdür. Bu meyl İ.Nəsimiyə münasibətdə də özünü göstərir. Yeri düşdü-düşmədi, İ.Nəsimi Azərbaycan ərazisi ilə əlaqələndirilir, əldə tutarlı fakt olmaya-olmaya İ.Nəsiminin Şamaxıda doğulduğu iddia edilir.

Mənəvi varlığımıza coğrafi meyarla yanaşmağın heç də həmişə özünü doğrultmadığını nəzərə alan Q.Paşayev fərqli mövqe tutur. Yeri gəlmişkən xatırladım ki, belə fərqli mövqe İ.Nəsimiyə münasibətdə də özünü göstərir. Q.Paşayev İ.Nəsiminin Bağdad yaxınlığındakı Nəsim kəndində doğulmasına dair mülahizə üzərində dayanır. Özü də bu mülahizə üzərində Q.Paşayev çox sakitcə, yəni həyəcansız-filansız dayanır. Belə yerdə özünü bir müəllif kimi çox sakit və təmkinli aparmaq bir yandan İraq-türkman mənbələrinin verdiyi tutarlı dəlil-sübutlar hesabına mümkün olursa, bir yandan da Q.Paşayevin ədəbi-tarixi hadisələrə məhz fərqli münasibəti hesabına mümkün olur. Soydaşlarımızın toplu halında yaşadığı hər hansı ərazini öz evi bilən Q.Paşayev çoxumuzdan fərqli olaraq, İ.Nəsiminin Bağdad yaxınlığındakı Nəsim kəndində doğulması ilə onun böyük Azərbaycan şairi olması arasında əndişəyə səbəb olacaq bir nöqtə görmür.

İ.Nəsimi və M.Füzuli yaradıcılığını daha çox Azərbaycan türkcəsinin məhsulu sayan, Azərbaycandakı ədəbiyyatımızla Azərbaycandan kənardakı ədəbiyyatımız arasında ən böyük bağlılığın dil bağlılığı olduğunu diqqət mərkəzində saxlayan Q.Paşayev İraq-türkman araşdırmalarını ilk növbədə dil araşdırmalarından başlayır. "İraq türkmanları kimdir, onlar bizə, yoxsa Orta Asiya türkmənlərinə daha yaxındır?" sualına cavab verərkən Q.Paşayev dil faktlarını önə çəkir: "Türkmən dilini səciyyələndirən əsaslı fərqlər vardır. Məsələn, türkmən dilində ilkin uzanan saitlər (baaş-yara, qöör-gor və s.) geniş yayıldığı halda, bu xüsusiyyətə nə Azərbaycan dilində, nə də Kərkük dialektində rast gəlirik. Ərəb və ingilis dillərində yer alan diş arası *s, z* səslərinə türkmən dilində təsadüf edildiyi halda, bu səslər nə Azərbaycan dilində, nə də Kərkük dialektində müşa-

hidə edilir. Türkmən dilində *g* samiti olmadığı halda, Azərbaycan dilində də, Kərkük dialektində də bu səs geniş yayılmışdır. İndiki, keçmiş və gələcək zaman şəkilçilərində və bir çox başqa xüsusiyyətlərdə də türkmən dili tamamilə fərqlənir". İ.Nəsiminin İraq Divanını dil baxımından araşdıran Q.Paşayev indi ədəbi dilimizin lüğət tərkibindən çıxmış, amma bu gün belə Kərkük dialektində işlənən *ulaşmaq, varmaq, yürü, kəndi, qutlu, tütün (tüstü), yey, irişmək (çatmaq)* və s. kimi sözlərin; eləcə də bu gün ədəbi dilimizdə işlənən, amma Kərkük dialektində olmayan *özgə, murdar, şıltaq, gerçək, sındırmaq* və s. kimi sözlərin İ.Nəsiminin İraq Divanında yer aldığını üzə çıxarır. Yaxud iraqlı soydaşlarımızın heç də təsadüfən "türkman" adı daşımadığını əsaslandırmaq üçün Q.Paşayev başqa mənbələrlə yanaşı, İ.Nəsimi, həmçinin Ş.İ.Xətai dilinə üz tutur:

Ərəbin nitqi bağlandı dilindən,
Səni kimdir deyən kim türkmansan.

(İ.Nəsimi)

Getdikcə tükənir ərəbin kuhi-məskəni,
Bağdad içrə hər necə kim türkman qonar.

(Ş.İ.Xətai)

Q.Paşayev bu cür dil faktlarına, o cümlədən bir sıra digər faktlara söykənib "türkman" adının tarixi həqiqəti əks etdirdiyini diqqətə çatdırır, həmin adı daşıyan eli Azərbaycan türkləri adlı Bütövün bir parçası kimi öyrənir. Bütöv və parça arasındakı ən böyük mənəvi körpünün dil olduğunu araşdırmanın ana xəttinə çevirən Q.Paşayev dilin ən bariz, ən təbii ifadəsini folklorda tapır. Təsadüfi deyil ki, Q.Paşayev iri həcmli elmi əsərlərindən birini ("Kərkük dialektinin fonetikası"nı) dilə həsr edibsə, başqa birini ("İraq-türkman folkloru"-

nu) ağız ədəbiyyatına həsr edib. Q.Paşayev folklor araşdırmaları ilə kifayətlənməyib, elmi araşdırmalar qədər, bəlkə, ondan da çox əhəmiyyət daşıyan toplama və tərtib işi ilə məşğul olub, İraq-türkman ağız ədəbiyyatı nümunələrinin toplandığı neçə-neçə kitab çap etdirib: "Kərkük bayatıları" (R.Rza ilə birlikdə, 1968), "Arzu-Qənbər dastanı" (1971), "Kərkük mahnıları" (1973), "İraq-Kərkük atalar sözləri» (1978), "Iraq-Kərkük bayatıları" (1984), "Kərkük tapmacaları" (1984), "Kərkük folkloru antologiyası" (1987). Q.Paşayevin İraq-türkman folkloru ilə bağlı araşdırmaları və toplama-tərtib işləri bu zəngin folklorun müxtəlif janrlarını (inanclar, yemindlər, dualar, bəddualar və fallar, mərasim nəğmələri, xoyratlar və manilər, türkülər, beşik nəğmələri, bayatı-tapmacalar, nağıllar, atalar sözləri və məsəllər, tapmacalar, lətifələr, dastanlar və s.) əhatə edir. İraq-türkman folkloruna aid araşdırmaları və toplama-tərtib işləri ilə Q.Paşayev iki mühüm vəzifəni yerinə yetirmiş olur: bir yandan bizi İraqda yaşayan soydaşlarımızın ağız ədəbiyyatı ilə yaxından tanış edir, başqa bir yandan bütövlükdə Azərbaycan folkloruna, onun ayrı-ayrı janrlarına yenidən baxmaq imkanı yaradır. Məsələ burasındadır ki, İraq-türkman folklorunun hər hansı janrı ilə, həmin janra aid nümunələrlə və Q.Paşayevin elmi şərhləri ilə tanış olduqda istər-istəməz tutuşdurmalar aparırsan, məsələlərə Kərkük-Azərbaycan müstəvisində yanaşıb ayrı-ayrı janrların "yeni-yeni" variantları və bir sıra görünməyən tərəfləri barədə dolğun təsəvvür əldə edirsən.

Folklor janrları içərisində eləsi yoxdur ki, Q.Paşayev o janra aid "yeni" nümunə təqdim etməmiş olsun. "Yenilik" ondan ibarətdir ki, təqdim edilən nümunə ya bizdə yoxdur, ya da bizdəkinin maraqlı variantıdır:

Oğlan, oğlan od gəti,
Oda salavat gəti.

(İnanc nümunəsi)

Ağ baxt,
Altun taxt,
Qara xəlayiq,
Bayaz əkməkçi,
Siyah kölə
Dilərəm qızıma.

(Alqış nümunəsi)

Ver, Allahım, ver,
Yağmurunnan sel.
Kəpəkli xırman,
Qoç-qoyun qurban.
Hey Çəmçələ, Çəmçələ!
Çəmçələm yağış istər,
Dam-divarı yaş istər.

(Mövsüm-mərasim nəğmələrindən)

Ev sənin, eşik sənin,
Dördəki beşik sənin.

(Toy nəğmələrindən)

Qalanın dibində üç ağac incir,
Əlimdə biləkçə, qolumda zincir.
Zinciri boş bağla, hər yanım incir,
Atma bu daşları, mən yaralıyam,
El-aləm al geyib, mən qaralıyam.

(Xalq mahnılarından)

Belə misalların sayını Q.Paşayevin kitabları hesabına nə qədər desən, artırmaq olar. Amma Kərkük folklorunun bizə tanış olmayan nümunələrlə zəngin olduğunu bir neçə misalla əsaslandırmağa çalışıb, bu folklorun populyar janrlarına toxunmaq istəyirəm. Kərkük folklorunun populyar janrları sırasında xoyratlar, heç şübhəsiz, birinci yerdədir. Əta Tərzibaşının sözləri ilə desək: "Kərkük anıldığı zaman xatirə ilk olaraq xoyrat gəlir və xoyrat adını duyduğumuz vaxt xəyalımızda Kərkük eli canlanır". Bizdən ötrü Kərkükün bir növ rəmzinə çevrilən xoyrat və manilərlə, bu şeir örnəklərindəki yüksək poetizmlə ilk dəfə (keçən əsrin altmışıncı illərində) tanış olduqda, hər şeydən qabaq, M.Füzuli şeiriyyətinin quru yerdə yaranmadığına bir daha əmin olduq. Əmin olduq ki, M.Füzuli şeiriyyətinin mühüm qaynaqlarından biri böyük şairin doğma el-obada eşitdiyi və ruhuna-canına hopdurduğu xoyrat və manilərdir. Xoyrat və manilərin M.Füzuli sənətinə qida verən məzmun gözəlliyi ilə yanaşı, bayatılarla üst-üstə düşən və düşməyən forma gözəlliyi də diqqəti cəlb etdi, xoyrat və manilərlə tutuşdurmada bayatılarımızı yenidən götür-qoy etmək zərurəti yarandı. Yaranmış zərurətdən doğan ən ardıcıl və sistemli araşdırmaları Q.Paşayev özü apardı. Bizə İraq-türkman folklorundan kifayət sayda və sanbalda örnək təqdim edən Q.Paşayev həmin örnəkləri hərtərəfli elmi süzgəcdən keçirməklə özünü bir folklorşünas kimi təsdiq etdi. Dilçi, tərcüməçi və publisist olması folklorşünaslıq fəaliyyətində ona geniş imkanlar açdı. Kərkük folkloru haqqında akademizmdən uzaq olan aydın mühakiməli, səlis dilli məlum monoqrafiya – "İraq-türkman folkloru" monoqrafiyası məhz həmin imkanlar hesabına meydana çıxdı.

Kərkük xoyrat və manilərinin forma özəllikləri içərisində diqqəti daha çox cəlb edən məsələlərdən biri kəmmisra

məsələsi idi. Tədqiqatçılar xoyrat və manilərlə tanışlığın ilk mərhələsində (XX əsrin altmışıncı illərində) kəmmisra məsələsini bayatılardan fərqin bir göstəricisi kimi qiymətləndirmişdilər. Sonra məsələyə münasibət tədricən dəyişdi. Kəmmisra məsələsi baxımından bayatılarımızın yenidən izlənilməsi toplama və tərtib işlərində yol verdiyimiz bir sıra qüsurlara aydınlıq gətirilməsinə kömək etdi. Məlum oldu ki, söyləyicilər heç də həmişə bayatını "mən aşiq", "aşiqəm", "əzizim", "əziziyəm" və s. kimi sözlərlə başlamırlar, həmin sözləri çox vaxt bayatıların əvvəlinə biz toplayıcı və tərtibçilər artırırıq. Yəni aydın oldu ki, birinci misranın 3-5 hecadan ibarət olması bayatılarda da özünü göstərən cəhətlərdən biridir. Bu qənaəti faktik bədii materiala və özünəqədərki nəzəri mülahizələrə söykənib əsaslı şəkildə ortaya qoyan Q.Paşayevin fikrinə şərik çıxıram və toplama-tərtib təcrübəmdən bir məqamı xatırlatmaq istəyirəm. Məqam ondan ibarətdir ki, bir vaxt həmkarlarımla birlikdə Laçın, Qubadlı, Zəngilan bölgələrində folklor ekspedisiyasında olanda kəmmisralı bayatıları, az da olsa, yazıya aldıq və həmin nümunələri necə var, o şəkildə nəşr etdik:

Daşdı canım,
Dərd gəldi, çaşdı canım.
Öz dərdim özüm çəkim,
Desinnər, daşdı canım.

Sal yana,
Dara telin, sal yana.
Necəsən, bir ah çəkim,
Kür quruya, sal yana.

Xoyrat-mani-bayatı əlaqələrində Q.Paşayevin diqqətə çatdırdığı məsələlərdən biri də qafiyələnmənin cinaslı, cinassız

olması məsələsidir. Q.Paşayev xoyratlarla manilərin başlıca forma fərqini məhz bu nöqtədə axtarır. Belə hesab edir ki, xoyratların cinaslı, manilərin cinassız olması bu nümunələrin janr özünəməxsusluğudur. Bəs cinaslı olub-olmamasına, həmçinin ilk misranın 3-5 hecalı olub-olmamasına görə bayatılar necə qruplaşdırılmalıdır? Xoyratlarla müqayisədən ortaya çıxan və bayatılarımızı Kərkük müstəvisində öyrənməyə yönələn bu cür suallara cavab tapmaqda üz tutduğumuz mötəbər qaynaqlardan biri yenə Q.Paşayev Kərküknaməsidir: "...kəsik bayatıların-xoyratların əvvəlinə Azərbaycanda lüzumsuz olaraq "əzizi-yəm", "mən aşiq", "eləmi", sözlərini artıraraq bir-iki nəfərin (Əzizi, Sarı Aşıq kimi el sənətkarlarının – M.K.) adına çıxmaqla ...xalq yaradıcılığının dəyərini, istəsək də, istəməsək də, azaltmağa səy göstərmiş oluruq. Ən acınacaqlısı isə odur ki, bunu başqa xalqlara da elə beləcə çatdırmağa çalışmışıq. Bütün bu deyilənlər, folklorşünaslarımızın son illərdə gəldiyi qənaət, bayatıya əvvəllər verilən tərifə başqa münasibətlə yanaşmağı tələb edir. Bizcə, bayatı və xoyratlara: "hər misrası 7 hecadan ibarət olan, *a, a, b, a* şəklində qafiyələnən dördlüklərə bayatı, birinci misrası 3-5 arası, qalan misraları 7 hecalı olan cinaslı dördlüklərə xoyratlar – kəsik bayatılar deyilir" tərifini vermək olar". Q.Paşayevin irəli sürdüyü bu tərifə əsaslanıb yuxarıdakı bayatılardan ikincisini cinas qafiyəsinə və kəmmisrasına görə "xoyrat – kəsik bayatı" adlandıra bilərik. Bəs misal çəkdiyimiz bayatılardan birincisini necə, onu da elə adlandırmaq mümkündürmü? Yeri gəlmişkən qeyd edim ki, Q.Paşayev Kərküknaməsindən sonra folklorşünaslarımız bayatıları tərtib və nəşr edərkən bu sayaq suallarla qarşılaşmalı olublar. Məsələn, V.Vəliyev 1985-ci ildə "Yazıçı" nəşriyyatında çap etdirdiyi "Bayatılar" kitabının "Elə getdi" adlı bölməsini "xoyratvari ba-

yatılar” kimi təqdim edib. Həmin bayatıların xoyratvariliyi ilk misranın məhz kəsik olmasındadır. Xoyratlar üçün səciyyəvi olan digər mühüm cəhətə, yəni cinas qafiyə məsələsinə gəldikdə isə, qeyd edilməlidir ki, V.Vəliyevin “xoyratvari bayatılar” kimi səciyyələndirdiyi nümunələrin yalnız bir qismi cinas qafiyəlidir. Göründüyü kimi, cinassız qafiyələr üstündə qurulan kəsik bayatıların da “xoyratvari bayatılar” sırasında verilməsi xoyratın məlum poetikası ilə ziddiyyət yaradır. Buna baxmayaraq, kəsik bayatılara xüsusi diqqət yetirilməsini bayatılarımızın tərtibində əhəmiyyətli addım sayırıq və bu addımın atılmasında Q.Paşayev Kərküknaməsinin mühüm rol oynamasını bir daha qeyd etmədən ötüşə bilmirik. Onu da xatırlatmağı lazım bilirik ki, janrın adı ilə poetikasının yuxarıda göstərilən şəkildə ziddiyyət yaratması Q.Paşayevin də diqqətindən yayınmayıb. Q.Paşayev Kərkük dördlükləri içərisində elələri ilə qarşılaşıb ki, həmin nümunələr nə xoyrat, nə mani poetikasına uyğun gəlir. Görünür, bunu nəzərə aldığından Q.Paşayev Kərkük dördlüklərindən ibarət kitabının adını “İraq-Kərkük xoyrat və maniləri” yox, “İraq-Kərkük bayatıları” qoyub. Doğrudan da, “bayatı” adı, haqqında danışdığımız dördlüklərin (cinaslı-cinassız, kəsik misralı-tam misralı olub-olmamasına baxmayaraq) bütün nümunələrini əhatə edir.

Q.Paşayevin bayatıya münasibətdə yaratdığı canlanma yuxarıda xatırlatdığım amillərlə bitmir. Xatırlanmalı amillər sırasına bir neçə başqasını da əlavə etmək olar. Məsələn, bayatıda misraların sayı qeyd edilməsi vacib olan məsələlərdəndir. Bu məsələ, yəni bayatının dörddən çox misra üstündə qurulması bizim folklorşünasların qabaqlar da toxunduğu məsələlərdən biri olub. Təsadüfi deyil ki, 1930-cu ildə Əmin Abid “Türk xalqları ədəbiyyatında “mani” növü və Azərbaycan ba-

yatılarının xüsusiyyəti" adlı məqaləsində dörd misralıdan səkkiz misralıyacan müxtəlif manilərin ayrı-ayrı türk xalqlarının folklorunda qeydə alınmasından bəhs edir. Yaxud H.Araslı 1956-cı ildə çap etdirdiyi "XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı tarixi" kitabında altı misralı bayatılarımızdan söhbət açır. Həmçinin A.Məmmədova Azərbaycan Əlyazmalar İnstitutunun arxivindən iyirmi bir ədəd altı misralı bayatı tapıb üzə çıxarır. Göründüyü kimi, çoxmisralı bayatılarımızdan bəhs edilərkən altı misralı nümunələr daha çox diqqət mərkəzində olub. Q.Paşayev isə İraq-türkman qaynaqlarından çıxış etməklə çoxmisralı bayatı məsələsində təsəvvürümüzü xeyli genişləndirib. Məlum olub ki, İraq türkmanlarında bayatının səkkiz, on, on iki, on dörd misradan ibarət nümunələri var:

Naşı gül,
Naşı bülbül, naşı gül.
Bir güldün, ağlım aldın,
Bir də belə naşı gül.
Sən gülsən, aləm gülər,
Ömrümün yoldaşı gül.
Oturub gül qoxuyur
Kirpiyi gül, qaşı gül.
Otuz iki çiçəyin
Hamısının başı gül.

Q.Paşayevin gətirdiyi bu cür misallar Kərkük bayatılarının formaca əlvanlığı barədə bizdə dolğun təsəvvür yaratmaqla bərabər, həm də bizi məsələyə dar çərçivədə yanaşmamağa, xalq ədəbiyyatının, o cümlədən xalq lirikasının improvizəyə, janrdaxili dəyişmələrə geniş meydan verdiyini nəzərə almağa çağırır.

Q.Paşayevin Kərküklə bağlı araşdırmalarında etnoqrafik materiallara geniş yer verilməsini də mühüm əhəmiyyət daşıyan

cəhətlər sırasında qeyd etmək lazım gəlir. Məlumdur ki, dünyanın hər yerində folklor etnoqrafiya ilə vəhdətdə götürülür və həmin sahələr eyni elmi mərkəzlərin (folklor-etnoqrafiya qurumlarının) tədqiqat predmetinə çevrilir. Dünya elmi təcrübəsinə əsaslanan Q.Paşayev Kərkük folkloruna həsr etdiyi doktorluq dissertasiyasında etnoqrafik materialları ayrı-ayrı janrların mifo-poetikasını açmağın mühüm qaynağına çevirir. Xalqın dünyagörüşünü öyrənməkdə etnoqrafiyanı mühüm mənbə sayan Q.Paşayev İraq haqqındakı "Altı il Dəclə-Fərat sahillərində" adlı publisistik əsərində də etnoqrafik detallara geniş yer verir və kitabın populyarlıq qazanmasını həm də bu cəhətlə təmin etmiş olur. Yeri gəlmişkən qeyd edim ki, xalqın həyat tərzi, adət-ənənəsi Q.Paşayevi bir tərcüməçi kimi də düşündürür. Başqa sözlə desək, etnoqrafiyaya üz tutmaqda folklorşünas Q.Paşayevlə tərcüməçi Q.Paşayevin marağı üst-üstə düşür, bir-birini tamamlayır. Q.Paşayev A.Dümanın başqa bir əsərini yox, xalqımızın həyat tərzini, adət-ənənələrini zəngin faktlarla əks etdirən "Qafqaz səfəri" əsərini tərcümə edir. Yaxud Amerika alimi S.Benetin başqa bir əsərini yox, Qafqaz xalqlarının, eləcə də Azərbaycan türklərinin mədəniyyətinə, adət-ənənələrinə həsr edilmiş "Necə yaşayasan, yüzü haqlayasan" əsərini tərcümə edir.

...Bu yazının ana xəttinə – Kərkük mövzusuna qayıdıb fikrimi belə yekunlaşdırmaq istəyirəm: Q.Paşayev İraq türkmanlarının həyat və məişətini ağız ədəbiyyatı ilə birlikdə araşdıra-araşdıra, bu yöndə kitablar yaza-yaza bizi də Kərkük sevdasına mübtəla elədi. Böyük sevda şairi M.Füzulini yetirən el-oba Q.Paşayev Kərküknaməsindən sonra bizim üçün Şəki, Şirvan, Qarabağ, Naxçıvan... kimi əlçatan, ünyetən el-oba oldu.

13 iyul 2012-ci il

TƏRTİBÇİDƏN

Tarix: 13 dekabr 2012-ci il, saat 10 radələri.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun konfrans salonu ağızınadək doludur. Bu gün burada AMEA Folklor İnstitutunun təşkilatçılığı ilə Azərbaycan ictimai-humanitar fikrinin görkəmli nümayəndəsi prof. Qəzənfər Paşayevin 75 illik yubileyi keçirilir.

Üzlər sevinclə, sinələr sözlə dolu. Hamı söz demək, bu sevimli insana və azərbaycanşünas alimə öz söz payını vermək istəyir. Təbii ki, zaman – vaxt buna imkan vermir. Yaxşı ki, məclisin aparıcısı AMEA Folklor İnstitutunun direktoru, filologiya üzrə elmlər doktoru Muxtar Kazımoğlu Imanov əvvəlcədən uğurlu format düşünmüş, Azərbaycan humanitar-filoloji fikrinin inkişafında çoxyönlü, çoxşaxəli fəaliyyətə malik Qəzənfər Paşayevin yarım əsrdən yuxarı dövrü əhatə edən zəngin yaradıcılığını və ömür kitabını fəsillərə bölmüşdü: dilşünaslıq, folklorşünaslıq, ayrıca aşıqşünaslıq, ədəbiyyatşünaslıq, tərcümə, regionşünaslıq, kulturologiya, bədii yaradıcılıq və bütün bunların fövqündə: insanşünaslıq.

M.Kazımoğlu yubilyar haqqında belə bir fikir ifadə etdi: «Qəzənfər müəllim öz yazısı ilə, özünün şifahi söhbətləri ilə yaşadığı günün tarixini yaratmağa can atan bir ziyalıdır». Doğrudan da, yubiley tədbiri tarixi günə çevrildi: fil.üz.e.d. Muxtar Kazımoğlu, fil.üz.e.d., prof. Qəzənfər Kazımov, fil.üz.e.d., prof. İsrafil Abbaslı, fil.üz.e.d. Seyfəddin Altaylı, fil.üz.e.d., prof. Şahin Xəlilli, fil.üz.e.d. Paşa Əlioğlu, fil.üz.e.d., prof. Kamran Əliyev, «Kredo» qəzetinin baş redaktoru, şair-publisist Əlirza Xələfli, fil.üz.e.d. Elxan Məmmədli, s.üz.e.d., prof. Rafiq İmrani, fil.üz.e.d. Möhsün Nağısoy,

fil.üz.e.d. Qurban Bayramov, fil.üz.e.d., prof. Vaqif Sultanlı, fil.üz.e.d. Adil Cəmil, fil.üz.e.d., prof. Mahmud Allahmanlı, fil.üz.e.n. Səkinə Qaybalıyeva, fil.üz.e.d. İslam Sadıq, şair-publisist Hacı Loğman Qorqud, fil.üz.e.d. Seyfəddin Rzasoy Qəzənfər müəllimin Azərbaycan tarixinə, mədəniyyətinə və xalqına bağlı «elm və əməl kitabını» vərəq-vərəq, fəsil-fəsil oxudular. Beləcə bu kitab doğuldu.

Bu da bir tarixdir: bizim, sizin və hamımızın tarixi.

PROF. QƏZƏNFƏR PAŞAYEVİN 75 İLLİYNƏ HƏSR OLUNMUŞ YUBİLEY TƏDBİRİ

Muxtar Kazımoğlu: Hörmətli həmkarlar, əziz dostlar! Biz bu gün biz Məhəmməd Füzulinin adını daşıyan bir elm ocağında professor Qəzənfər Paşayevin görüşünə gəlmişik. Mən Məhəmməd Füzuli ilə Qəzənfər Paşayevin adını bilərəkdən qoşa çəkirəm. Belə hesab eləyirəm ki, burada bir rəmzi məna var. Məhəmməd Füzuli Kərkük elimizdən çıxan dünya miqyaslı şairimizdir. Qəzənfər müəllim də Kərkük sevdalı alimimizdir. Qəzənfər müəllim yalnız ədəbiyyatşünas, folklorşünas deyil, həm də tanınmış dilçidir. Hamınız bildiyiniz kimi, Qəzənfər müəllim həmçinin, tanınmış publisist və tərcüməçidir. Bizim bugünkü məclisin qəhrəmanı professor Qəzənfər Paşayev həm də bu cəhətlərin hamısını bir istiqamətdə birləşdirib: o, Azərbaycan türklərinin mənəvi varlığını coğrafi sərhədlər tanımadan qarış-qarış, addım-addım, sətir-sətir öyrənir, tədqiq eləyir və tədqiq elədiyi predmetə mənəvi bütövlük meyarı ilə yanaşır. Təkcə yazılarında yox, həmkarlarına, uşaqdan-böyüyə tanıdığı-tanımadığı müxtəlif insanlara münasibətində də Qəzənfər müəllim həlimdir, mülayimdir. Burda oturanların hər biri təsdiq eləyə bilər ki, bizim çevrəmizdə Qəzənfər müəllim kimi təmkinli, yumşaq təbiətli, ən sərt sözlərini belə yağla, balla qatıb söyləyən, ifadə eləyən adam tapmaq çətindir. Qəzənfər müəllim öz yazılarında ən sərt polemik söhbətlərini son dərəcə yüksək mədəniyyətlə aparır. Kefi yaxşı olanda da, pis olanda da Qəzənfər müəllim bir həmkarını görəndə hardansa gözəl bir söz tapıb deyə bilir. Qəzənfər müəllim insanlar haqqında danışanda güldən ağır söz işlətmək

istəmir. Bu mənada Qəzənfər müəllim gözəl alim olmaqla yanaşı, nəcib və xeyirxah bir insandır. Qəzənfər müəllim öz yazısı ilə, özünün şifahi söhbətləri ilə yaşadığı günün tarixini yaratmağa can atan bir ziyalıdır. Bizim də borcumuzdur ki, professor Qəzənfər Paşayevin 75 illiyini bəhanə edib onun görüşünə gələk və o görüşdə Qəzənfər müəllim haqqında söz deyək. Mən arzu edirəm ki, bu görüş Qəzənfər müəllimin özünün xasiyyətinə, xarakterinə, məramına, məsləkinə uyğun şəkildə keçsin, haydan-küydən uzaq, səmimi sözlər fonunda keçsin. İnanıram ki, belə də olacaq.

Bir cəhəti də qeyd edib, istəyirəm sözü həmkarlarıma verim. Qeyd etmək istədiyim sözlərdən biri də ondan ibarətdir ki, Azərbaycanın mənəvi həyatında müəyyən rol oynamış çox az adam tapmaq olar ki, Qəzənfər müəllim onun haqqında bu və ya digər dərəcədə söz deməsin və yazmasın. Mən Nizami, Nəsimi, Füzuli kimi dahiləri bir tərəfə qoyuram. Bu gün yaşayan, həmçinin yaxın zamanlara qədər yaşamış ədəbiyyatşünas və dilşünas alimlərimiz haqqında, ədiblərimiz, yazıçılarımız, şairlərimiz haqqında Qəzənfər müəllim qədər geniş ürəklə yazan, bəlkə də, ikinci həmkarımıza rast gəlmək çətindir. Qəzənfər müəllim kimlərdən yazmayıb? Akademik Bəkir Nəbiyevdən, Yaşar Qarayevdən, akademik Məmmədağa Şirəliyevdən, Tofiq Hacıyevdən, şairlərdən Hüseyn Arifdən, Tofiq Bayramdan, yazıçılardan İsi Məlikzadədən və şifahi xalq ədəbiyyatının tanınmış nümayəndələrindən. Qəzənfər müəllim vaxtının azlığına baxmayaraq, imkan tapıb aşıq Mikayıl Azaflının haqqında böyük bir kitab yazıb. Bu kitab həm aşığın şeirlərindən, həm də Qəzənfər müəllimin o şeirlərə yazdığı şərhlərdən ibarətdir. Qəzənfər müəllim Kərkükü bizə həm də o elin yetirdiyi şəxsiyyətləri vasitəsilə tanıdıb. Qəzənfər müəl-

limin Kərkük aləmindən əxz edib bizim ədəbiyyatşünaslığımıza, folklorşünaslıq elmimizə gətirdiyi fikirlər həm də o şəxsiyyətlərin adı ilə bağlıdır. Məsələn, Qəzənfər müəllim bizə Əta Tərzibaşı kimi görkəmli bir ədəbiyyatşünas alimi tanıdıb, Əbdüllətif Bəndəroğlu kimi ziyalımızı tanıdıb. Qəzənfər Paşayev həm o şəxsiyyətlərin yazdıqları, həm də özünün qarış-qarış gəzib Kərkük kəndlərindən topladığı materiallar əsasında tədqiqatlar aparıb, Azərbaycan folklorşünaslığına yeni-yeni töhfələr verib. Azərbaycan bayatılarına Qəzənfər müəllimin təqdim elədiyi Kərkük müstəvisində yeni gözlə baxmışıq və başa düşmüşük ki, biz bayatıları bəzən düz araşdırmırıq, düz tərtib eləmirik. Yəni biz Kərkük folkloru ilə müqayisədə bütövlükdə Azərbaycan folkloruna yenidən qiymət verməli olmuşuq, öz araşdırmalarımızda düzəlişlər eləmişik, toplama işlərimizdə düzəlişlər aparmışıq. Bütün bunlar Qəzənfər Paşayev "Kərküknamə"sinin bizə verdiyi töhfələrdir, bəhrələrdir. Burada mən dilçi alimimiz Qəzənfər Kazımovu görürəm, tərcüməçi alimimiz Şahin Xəlilovu görürəm. Mən bilirəm ki, buradakı həmkarlarımız Qəzənfər müəllimin həm həyatının, həm də yaradıcılığının müxtəlif yönlərindən danışacaqlar. Odur ki, vaxtınızı çox almadan Qəzənfər müəllimə Folklor İnstitutunun təbrik məktubunu oxumaq istəyirəm (*Təbrik məktubu oxunur*). Qəzənfər müəllimə bizim balaca bir hədiyyəmiz də var. Mən bunun tarixçəsi haqqında bir-iki cümlə deyim və hədiyyəni Qəzənfər müəllimə təqdim edim.

Keçən ilin axırında biz belə qərara gəldik ki, Azərbaycan aşıqlarının ən məşhur ifalarından ibarət bir musiqi albomu tərtib edək. Tərtib işində Elxan Məmmədli ilə Rafiq İmraninin böyük zəhməti oldu. Beş diskdən ibarət olan bu alboma 1950-2011-ci illər arasında ən nəhəng aşıqlarımızın, qocaman

sənətkarlarımızın, cavan nəslin nümayəndələrinin ifasında yazıya alınmış say-seçmə aşıq ifaları və iki dastan daxil edildi. Bu musiqi albomunu Qəzənfər müəllimə bağışlamaq, elə bilirəm ki, yerinə düşər. Yerinə düşər, ona görə ki, Qəzənfər müəllim aşıq sənətinin çağladığı bir mühitdə boya-başa çatıb. Bu sözləri deyirəm və Qəzənfər müəllimin mühit haqda bir sözünü yada salıram. Deyir, Tofiq Bayram bir müddət Qazax mühitində yaşadığına görə onun şeir yaradıcılığına aşıq şeiri janrları daxil olub. Qəzənfər müəllim də məşhur aşıqlar vətəni Tovuzda doğulub, ərsəyə gəldiyindən, şübhəsiz ki, onun damarlarından aşıq musiqisi bizdən qat-qat bol axır. Qoy Qəzənfər müəllim bu disklərdən Aşıq Əsədin, Aşıq Əmrahın, Aşıq Əkbərin... səsinə qulaq asıb, ötən günlərə qayıtsın, gələn günləri könül xoşluğu ilə qarşılasın (*Hədiyyə təqdim edilir*).

Qəzənfər Paşayev: Bundan gözəl hədiyyə ola bilməz. Məni heç bir hədiyyə belə razı sala bilməzdi, inanın mənə. Çox təşəkkür edirəm.

Muxtar Kazımoğlu: Beləliklə, biz bu görüşümüzü başlayırıq. Mən ilk sözü dilçi alimimiz Qəzənfər Kazımova verirəm.. Ona görə ki, onun adaşı elmi yaradıcılığa ilk növbədə dilçi kimi başlayıb.

Qəzənfər Kazımov: Mən yaxın dostum Qəzənfər Paşayev haqqında üç məqalə yazmışam. Onun yeddi cildlik «Seçilmiş əsərləri» haqqında da çox geniş yazı yazmışam. Yaradıcılığı mənin üçün çox aydındır, çünki biz həmişə yaxın olmuşuq. Yəqin ki, ədəbiyatçılar onun ədəbi görüşlərindən danışacaqlar. Ona görə də bu gün istəyirəm onun daha çox dilçilik sahəsində xidmətlərini nəzərinizə çatdıram. Qəzənfər müəllimi

daha çox ədəbiyyatşünas alim kimi səciyyələndirirlər, amma doğru olaraq siz elə sözə başlayanda etdiniz ki, Qəzənfər müəllim həm dilçidir, həm ədəbiyyatşünas alimdir. Amma Qəzənfər müəllim yaradıcılığa dilçi kimi başlayıb. Dilçilikdən ədəbiyyatşünaslığa keçmək nisbətən asandır, ədəbiyyatşünaslıqdan dilçiliyə gəlmək çətindir. Çünki dilçilik konkret elmdir. O konkretliyi öyrəndikdən sonra ədəbiyyat aləminə girmək mümkündür. Qəzənfər müəllim elmi yaradıcılığa dilçi kimi başladığı üçün ədəbiyyat aləmində də son dərəcə dəqiqdir. Mən yazılarımda qeyd eləmişəm ki, Qəzənfər müəllim yaxşı öyrənmədiyi, dəqiqləşdirmədiyi, özü üçün tam aydın etmədiyi məsələ haqqında heç vaxt yazı yazmaz. Özü də yazılarında nə şişirtmə olar, nə də kiçiltmə. Fakta həmişə obyektiv yanaşır. İndiki dövrdə bu ən mühüm məsələlərdən biridir.

Mən onun dilçilik sahəsindəki xidmətləri barəsində danışmaq istəyirəm. Hələ keçən əsrin 60-cı illərinin ortaları idi. Qəzənfər müəllim İraqdan məzuniyyətə təzə qayıtmışdı, bizim kafedraya – rəhmətlik Əbdüləzəl Dəmirçizadənin yanına gəldi. Kafedrada söhbət elədi ki, İraq ərazisində yaşıyan azərbaycanlıların şivə xüsusiyyətləri haqqında dissertasiya yazmaq istəyir. Professor da bunu çox təqdir elədi, bizim yoldaşlar da. Çünki Gürcüstan ərazisində, Ermənistanda, Dağıstanda olan azərbaycanlılara əlimiz çatırdı, öyrənə bilirdik. Amma ora hələ nə ağıla gəlirdi, nə də hər an getmək mümkün idi. Bundan bir neçə il sonra – 1969-cu il ildə Qəzənfər müəllim kafedraya artıq dissertasiya ilə gəldi. Başda professor Dəmirçizadə olmaqla dissertasiya çox geniş müzakirə olundu. Mən o zaman kafedranın katibi idim. Vəziyyət belə idi ki, kafedraya gələn dissertasiyaların hamısına mən rəy yazırdım və o da mənim üçün elmi baxımdan çox xeyirli idi. İndiki kimi deyildi. Dissertasiya çox

ciddi şəkildə oxunub müzakirə edilirdi. Mən dissertasiyanı diqqətlə oxuyub, kafedra əməkdaşlarının fikirlərini də nəzərə almaqla yaxşı bir rəy yazdım. Qəzənfər müəllim o rəyi "Bu sevda ölüncədir" kitabında Dəmirçizadənin və mənim adımdan çap etdirib. Dissertasiya haqqında rəyi verdikdən sonra ona dedim ki, adaş, bu dissertasiyada elə bir fakt var ki, sən onu ya hələlik gizlət, dissertasiyadan çıxart, ya da təcili onun haqqında bir məqalə yaz, ondan sonra ortalığa çıxart. İndi sözümə baxır hərdən, amma o vaxt sözümə baxmadı, çıxartmadı. Az sonra həmin fakt haqqında M.Şirəliyevin məqaləsi çap olundu. O fakt nə idi? Çox yoldaş bilir ki, türkologiyada feli birləşmələr haqqında müxtəlif fikirlər var. Kononov, Qordlevski, Dəmirçizadə kimi çox böyük alimlər feli birləşmələri budaq cümlə hesab etmişlər. Bir sıra alimlər isə onu budaq cümlə saymır, cümlənin mürəkkəb üzvü hesab edir. Onların da əsas dəlili odur ki, feli birləşmənin əsas tərəfi şəxslər üzrə dəyişmir: «mən gələndə, sən gələndə, o gələndə» və s. Heç bir türk dilində feli bağlama şəxslənmir. Lakin adaş böyüklü-kiçikli qırxa qədər türk dilləri içərisində birinci dəfə tapmışdı ki, İraq-Türkmən əhalisinin dilində feli bağlama şəxslənir: «mən gələndəm, sən gələndom, o gələndə, biz gələndək, siz gələndəvüz, onlar gələndələr». Bu, bütün türkologiya aləmində çox mühüm bir faktdır və bunu mənim adaşım Qəzənfər Paşayev tapmışdı. Mən dedim ki, adaş, bunu ya gizlət, ya da özün şərh et. Adaş eləmədi, Şirəliyev onun haqqında məlumat verdi.

Dissertasiyada ilk dəfə olaraq İraq azərbaycanlılarının danışdığı dialektin fonetik xüsusiyyətləri çox diqqətlə araşdırılmışdır. Amma adaş bununla kifayətlənmədi, sonrakı gedişdə – 1972-1975-ci illərdə daha çox material topladı. Sizə məlumdur ki, folklorun kiçik janrlarının hər birinə aid, demək

olar ki, bir kitab buraxıb: «Kərkük bayatıları», «Kərkük atalar sözləri», «Kərkük tapmacaları», «Kərkük mahnıları», böyük janrlardan «Arzu Qənbər» dastanı. Nəsiminin divanını tapıb çap elədi. Sonra folklor antologiyasının ikinci cildi. Bunlar çox zəngin material verdi və bizim dilçiləri maraqlandırmağa başladı. Səyyarə Mollazadə, Seyfi müəllim, Şövkət Kərimov bu materiallar əsasında yaxşı yazılar yazdılar. İş o dərəcədə nəzəri cəlb elədi ki, bir gün Ağamusa müəllim dialektologiya şöbəsini məsləhət görür ki, bu əsərlərin dili üzərində işləmək lazımdır. Bir neçə illik işinizi Qəzənfər Paşayevin həmin bu əsərlərinin üzərində qurun. Şöbə düz üç ilə qədər onun çap etdiyi əsərlərin dili üzərində işləmişdir. Mən şöbəyə müdir gələndə sonuncu il idi. Şöbə əməkdaşları çap materiallarından çox, Qəzənfər müəllimin əlyazmalarından istifadə edirdilər. Qəzənfər müəllim materialları uzun dəftərlərə yazmışdı. Çap materallarından ona az istifadə edirdilər ki, çapda mətnlər bir qədər ədəbiləşdirilmişdi. Əlyazmalarda hər şey olduğu kimi idi. Şöbə bu yazılardan istifadə edib böyük bir əsər hazırlamışdı. Bundan bir az əvvəl dialektologiya şöbəsinin müdiri kimi, Qəzənfər müəllimə məsləhət görmüşdüm ki, namizədlik dissertasiyasını çap etsin. O da yeni materiallar əsasında onu nəzərdən keçirdib, "Kərkük dilinin fonetik xüsusiyyətləri" adlı yaxşı bir monoqrafiya buraxdı. Bunu da daxil elədik İraq-Türkmən ləhcəsinin içərisinə. Qəzənfər müəllim bizim işlədiklərimizə də baxdı, yaxşı bir giriş yazdı, mən də bir ön söz yazdım və onun yaradıcılığı əsasında "İraq-Türkmən ləhcəsi" adlı çox qiymətli bir kitab çap etdirdik.

Bu əsərin əhəmiyyəti nədən ibarətdir? Əhəmiyyəti, şübhəsiz ki, çox idi. Azərbaycanlıların bir qolu olan bu camaatın dili, şivə xüsusiyyətləri ilk dəfə öyrənilirdi. Amma başqa mü-

hüm məsələlər də vardı. Məsələn, bizim görkəmli alimlərimiz, akademiklər tarixi məsələlərini yaxşı bilmədikləri üçün, görürsən, bu xalqı düzgün xarakterizə edə bilmirdilər. Akademiklərdən biri yazır ki, öz yurdunda olan azərbaycanlılarla öz yurdunda olmayan azərbaycanlılar var. Guya İraq-Türkmən əhalisi öz yurdunda olmayan azərbaycanlılardır. Halbuki Azərbaycan-türk xalqının mənşəyi daha çox ora ilə bağlıdır. Qəzənfər müəllim o tarixə yaxşı nəzər salıb. Qeyd edir ki, bir vaxt Araz çayı şimal ilə cənubu iki yerə böldüyü kimi, 1746-cı ildə Naxçıvandan üzü aşağı çəkilən xətlə Azərbaycanın cənub hissəsi də iki yerə bölünüb, bir hissəsi qalıb İraq ərazisində. Çoxları elə bilirlər ki, bunlar ora köçüb gediblər. Qazaxdan, Gəncədən köçüb gedənlər var, amma bunlar orada yaşayan köklü əhalidir. İkinci bir əhəmiyyəti odur ki, bunlar özlərini də türkman adlandırırlar, bizi də türkman adlandırırlar. İndi çox maraqlıdır ki, bu türkmanlarla Türkmənistan türkmənlərinin nə əlaqəsi var? Bunlar 1746-cı ildən Türkiyə türklərinin nəzarəti altında olublar. Osmanlıların bunlara nə təsiri olub? Bunların ikisinə də Qəzənfər müəllim həmin əsərin girişində geniş faktlarla cavab verib. Göstərir ki, bunların türkmənlərlə heç bir əlaqəsi yoxdur. Osmanlı türkləri isə o vaxtdan bəri bunlara ağalıq eləsələr də, onların dilindən bir sıra sözlər keçsə də, bunların dili xalis Azərbaycan dilidir və Türkiyə əhalisinin dili ilə bunların arasında çox ciddi fərqlər var. Hətta bir vaxt türklər məsələ qaldıranda ki, onlar bizim əhalidəndir, ingilislər buna etiraz ediblər ki, düz deyil, İraq türkmanları Azərbaycan türkləri ilə bağlıdır, osmanlı türkləri ilə deyil.

Əsərdə, materiallarda dilimizin tarixini öyrənmək üçün çox zəngin faktlar var. Məsələn, Dədə Qorqudda “qavat” sözü var. “Qavat” sözü bizim heç bir şivəmizdə işlənmir, amma

orda “qəvvad” sözü «yaramaz», «alçaq» mənasında işlənir. Biz «dör-döşək» deyirik. Elə bilirik, «dör-döşək» qoşa sözdür. O əhalinin dilində «dör» sözü «qonaq otağı» mənasındadır. Belə faktlar çoxdur.

Qəzənfər müəllimin yaradıcılığı çox zəngindir. Mən onun, dediyim kimi, yeddi cildliyini ətraflı təhlil etmişəm. Özü də çox oxunaqlıdır, adam əlinə aldıqda yerə qoymaq istəmir. Qəzənfər müəllim çox səmimi yoldaşdır, çox mehriban yoldaşdır. Mən Qəzənfər müəllimin bütün uğurlarını həmişə öz uğurum kimi qiymətləndirmişəm. Çünki bu millət də həmişə bizi qarışdırır. Ona görə də onun elədiyi bir çox hallarda məni adıma, mənim elədiyim onun adına çıxılır. Bu barədə bir lətifə də deyə bilərəm. Mən bir institutda Hüseyn Ariflə görüş keçirmişəm. Görüşün sonunda Hüseyn Arif rektorluğa, müəllimlərə, tələbələrə təşəkkür edib qurtardıqdan sonra indi mənə təşəkkür edir. Mən də durmuşam yanında. Deyir ki, sağ olsun Qəzənfər Paşayev, çox yaxşı məclis keçirdi. Sağ olsun Qəzənfər Paşayev, mənim haqqımda yaxşı sözlər dedi. Mən də hirslənib “əşi, mən Paşayev deyiləm” – deyəndə o da mənə hirslənir ki: “Sən də bir kiri görək. Dünən bir ayrı məclisdə onun əvəzinə səni tərifləmişəm”.

Mən Qəzənfər müəllimə uzun ömür, can sağlığı arzulayıram. Səksənilliyində, doxsanilliyində özü ilə birlikdə iştirak edəsiniz.

Muxtar Kazımoğlu: Əziz dostlar, mən bir mətləbə də toxunub, sonra sözü İsrafil müəllimə – İsrafil Abbaslıya vermək istəyirəm. Bu mətləb ondan ibarətdir ki, Qəzənfər müəllim Şimali Azərbaycan sərhədlərinə sığmayan mənəvi varlığımızı tədqiq edəndə iki məsələyə həmişə xüsusi diqqət yetirir.

O məsələlərdən biri dil məsələsidirsə, ikincisi folklor məsələsidir. Qəzənfər müəllim Borçalı türklərindən yazanda da, Dərbənd türklərindən yazanda da, Kərkük türklərindən yazanda da, Qars türklərindən yazanda da bu iki amili ön plana çıxarır. Mən istəyirəm, Qəzənfər müəllimin folklorşünaslıq fəaliyyətindən danışaq.

İsrafil Abbaslı: Qəzənfər müəllim haqqında danışmaq mənim üçün çox çətindir. Çünki biz uzun illər boyu ünsiyyətdə olmuş, çap olunmuş kitablarımızı bir-birimizə bağışlamış, bir-birimizin qabiliyyəti, elmi yaradıcılığı ilə maraqlanmışıq. Burada Qəzənfər müəllimin çoxyönlü elmi fəaliyyəti haqqında xüsusi danışdılar. Mən çox fikirləşdirdim ki, onun çoxşaxəli yaradıcı fəaliyyətini, kitablarını, araşdırmalarını ümumi şəkildə necə adlandırmaq olar ki, bir anlam, ya bir istilahla onu ifadə etmək mümkün olsun. Mən belə qənaətdəyəm ki, Qəzənfər müəllim Azərbaycanşünas alimdir, onun bütün bu fəaliyyəti də «Azərbaycanşünaslıq» adı altında ümumiləşdirilə bilər.

Mən Qəzənfər müəllimin bəzi görünməyən tərəfləri haqqında danışmaq istəyirəm. Qəzənfər müəllimin bütün bu fəaliyyətləri haqqında həddindən artıq söz deyilə bilər. Onun kitablarını oxuyan adam istər bizim ölkəmiz daxilində olsun, istər ölkəmizin hüdudlarından kənarda onu qiymətləndirə, dəyərləndirə bilər. Bir də var onun görünməyən tərəfləri. Bunu onunla sıx ünsiyyətdə olanlar deyə bilərlər. Mən bu gün bu baxımdan bir neçə məqama toxunmaq istəyirəm.

Bu gün AMEA-nın Folklor İnstitutu özünü tanıtmış, oturuşmuş institutdur. Amma bu institutun yaranmasında müəyyən bir qrupun, bazanın rolu olmuşdur. Burda Qəzənfər müəllimin də özünəməxsus xüsusi yeri vardır. Onu qeyd edim

ki, mən Qəzənfər müəllim haqqında düşüncələrə dalanda fikirləşirdim ki, bunu necə qiymətləndirmək olar. Peyğəmbərimizin belə bir kəlamı yadıma düşdü. İnsan üç şeyi unutmalı, üç şeyi isə həmişə yadda saxlamalıdır. Yadda saxlayacağı şeylərdən biri ölümdür. Unudacağı şeylərdən birincisi elədiyi yaxşılığı unutmaqdır. İkincisi, sənə olunan pisliyi unutmalısan. Bu gün Qəzənfər müəllimin 75 illiyini qeyd edəndə mən düşünürəm ki, bax bu kəlamlar onun həyatına uyğun gəlir. Çünki Qəzənfər müəllim belə bir həyat tərzi keçirməsəydi o, bu gün gəlib 75 yaşına çatmazdı və bu da az-az insanlara qismət olan ömür yoludur.

Folklorşünaslar, ümumiyyətlə elm sahəsinin adamları keçid dövründə, hamınız yaxşı bilirsiniz, çox acılı bir güzaran keçirdirdilər. Bu təbii bir gediş, tarixi mərhələ idi. Vəziyyət o dərəcəyə gəlib çatmışdı ki, pul vahidi çatışmırdı. Onun yerinə istiqraz vərəqələri verirdilər, ona da mağazaların heç birindən ərzaq almaq olmurdu. Məcbur olurduq ki, istiqraz vərəqələri ilə veteranlar dükanından müəyyən qədər mal alaq ki, pulun qalığını qaytaranda ona ərzaq ala bilək. Belə bir dövrdə Qəzənfər müəllim tez-tez bizim şöbəyə gəlib gedirdi. Bir gün o, şöbənin rəhbəri kimi mənə dedi ki, İsrafil, bu şöbədə neçə nəfər işləyirsiniz? Dedim, Qəzənfər müəllim beş-altı nəfərik. Bizim söhbətimiz bununla bitdi. Bu açıqlamanı birinci dəfədir məclisdə səsləndirirəm. Bunu etiraf eləməliyəm. Bir müddətdən sonra Qəzənfər müəllim gəldi, zərfdə mənə nəsə verdi, dedi ki, bunu özün necə istəyirsən şöbədə bölərsən. Dedim, nədir? Dedi, müəyyən qədər puldu. Mən bunu şöbənin bir əməkdaşına verdim və tapşırdım ki, bunu beş-altı nəfər arasında fərq qoymadan bölsün. Bu, uzun müddət davam etdi. Sonra gördük ki, bu vəziyyət artıq vərdiş şəkilini alır və mən

Qəzənfər müəllimdən xahiş elədim ki, mənim xətrimi istəyirsinizsə bu pul işini dayandırmaq lazımdır. O da sözə baxdı, bu işi dayandırdı. Amma o balaca kollektiv sonra oldu Folklor İnstitutuna çevrildi. Belə güzaranlarımız çox olub.

Mənim Qəzənfər müəllimin xeyriyyəçiliyi ilə bağlı başqa bir epizod da yadımda qalıb. Qəzənfər müəllim gələndə institutu gəzirdi, baxırdı kimin vəziyyəti necədir. Bir nəfər çox pis vəziyyətdə idi. O, mənə bir məbləğ verib dedi ki, bəs bunu apar ver filankəsə. Mən də götür-qoy elədim, dedim, mən verə bilmərəm, özünüz verin. Mən bilirdim, bu nədir, amma miqdarını bilmirdim. Fikirləşdim ki, mən bunu aparıb həmin şəxsə çatdırsam, bəlkə o adam götürmədi. Onda Qəzənfər müəllimlə mənim aramda bir şübhə yeri qalar ki, o məbləği mən ona çatdırmamışam. Mənə dedi ki, yox, mən sənə inanıram, sən bunu aparıb verməlisən. Mən də apardım verdim o şəxsə. Ona dedim ki, Qəzənfər müəllimə təşəkkür etsin və paketdəki məbləği ona bildirsin. Deməyim odur ki, Qəzənfər müəllimin belə xeyirxah əməlləri çox olub, bunlar haqqında çox danışmaq mümkündür. Belə bir rəvayət var. Deyirlər, bir adam ölkəni tərk edəndə, yeni bir yaşayış məskəni seçəndə həmişə orda iki şeyi nəzərə almalıdır. Birinci qəbiristanlığa getməlidir. Orda müəyyən edilə bilər ki, bu xalq öz keçmişinə, öz ağsaqqalına nə dərəcədə hörmət edir. Ondan sonra bilər ki, burda yaşamaq mümkündür. Burda hörmət var, izzət var, soykökün, ağsaqqalın yeri bilinir. İkincisi, bazara getməlidir, görsün, orda bolluqdur, ya yox. Bu söhbəti mən Qəzənfər müəllimə tətbiq etmək istəyirəm. Qəzənfər müəllimin görünməyən çox fəaliyyəti olub. Qaçqınlara, Qarabağ müharibəsi əlillərinə ev tikdirib. Bir çox kitablara sponsorluq edib. Hətta eşitdiyimə görə, Qurani-Kərimin nəşrində də fəaliyyəti olub. Bir sıra ziyalılarımız olub, dünyasını dəyişəndə onların

ailələrinin mərhuma abidə qoymaq imkanları olmayıbdır. Onların qəbrinin üstünü Qəzənfər müəllim götüzdürüb. Fəxri xiyabanda bir gözətçi var. Ora baş çəkəndən soruşur ki, Qəzənfər müəllimi tanıyırsan? Bax, filan, filan abidələr Qəzənfər müəllimin xidmətidir. Qəzənfər müəllim öz fəaliyyəti, xeyirxahlığı, xeyriyyəçi işləri ilə o dünyasını bu dünyada qazanmış ziyalıdır.

Bilirsiniz ki, prof. Xalıq Koroğlu bizim «Koroğlu» eposunun Moskvada nəşri ilə bağlı Azərbaycana çox güzar eləyirdi. 1986-cı ildə mən doktorluq dissertasiyasını müdafiə edəndə respublikada bir nəfər də olsun mənə opponent olmağa razılıq vermədi, hamısı imtina etdi. Ona görə də mən ağır vəziyyətdə kənardan opponent gətirdim. Daşkənddən, Tiflisdən, İrəvandan və s. Həmin dövrdə mən prof. Xalıq Koroğluya Moskvada fəaliyyət göstərən bir ziyalı kimi opponentlik təklif edəndə o razı oldu. İki-üç gündən sonra biz institutda görüşəndə dedi ki, İsrafil, səndən bir şey soruşacağam, amma sual vermə. Dedim, buyur. Dedi ki, mən sənə opponent olmayacağam. Amma mən and içirəm oğlumun canına ki, AAK-da sənə kömək edəcəyəm. Belə də oldu. Lakin mən özümü həmişə borclu sayırdım, ürəyimdə dolandırırdım. Tale elə gətirdi ki, biz Kareliyada – Petrozavodskidə müşavirədə Xalıq müəllimlə görüşdük. Mən Xalıq Koroğluya dedim ki, Xalıq müəllim, siz belə bir xeyirxah addım atdınız. Fikirləşdim ki, yəqin, siz Bakıya gələrsiniz, biz oturub dərdləşərik, sizə təşəkkür edərəm. Dedi ki, İsrafil, mən səni yaxından tanıyıram. Sən ki onu ürəyində dolandırırsan, o mənim üçün kifayətdir. Mən bu söhbəti də Qəzənfər müəllimə yönəltmək istəyirəm. Sizin əl tutduğunuz adamlar istər elmdə, istər ayrı-ayrı şəxslərin simasında olsun, siz onların ürəyində dolanırsınız. Elə o, sizin üçün kifayətdir. Sizə uzun ömür, can saglığı, sevincli illər arzu edirəm.

Muxtar Kazımoğlu: Mən belə hesab edirəm ki, folklorşünas alim kimi Qəzənfər müəllimin ən böyük xidmətlərindən biri ondadır ki, o, Kərkük xoyratlarını, mahnılarını, digər folklor janrlarını ifa prossesi ilə vəhdətdə götürüb. Və göstərib ki, insanlar mahnını, xoyratı ifa prossesində bizə çatdırıblar, bu nümunələri heç də oturub evdə şeir kimi yazmayıblar.

İstəyirəm sözü Türkiyədən olan dostumuz Seyfəddin Altaylıya verim.

Seyfəddin Altaylı: Muxtar müəllim, siz Qəzənfər Paşayevin, hörmətli alimimizin adını Fizuli ilə əlaqələndirdiniz. Çox düzgün bir əlaqələndirmə idi. Qəzənfər müəllimə hörmətim böyükdür. O, mənim dissertasiya işimin müdafiəsində iclasın rəhbəri idi. Buna görə də ona minnətdarlığımı bildirirəm.

Bizə görə Qəzənfər Paşayev kimdir? Təbii ki, sizlər onu Azərbaycanda bir alim kimi, bir folklorşunas kimi dəyərləndirirsiniz. Amma Türkiyədən biz ona ayrı pəncərədən baxırıq. Yəni bir insan bizim dünyamıza nə verib və nə verəcəkdir: bu prizmadan yanaşırıq. Qəzənfər müəllim təkcə Azərbaycanın və Kərkükün deyil, bütövlükdə türk dünyasının görkəmli alimidir. Onun elmi ədəbiyyata və ictimai ədəbiyyata gətirdikləri Türkiyədə çox yaxşı bilinir. Məsələn, burda bir şəxsiyyətin adını qeyd etmək istəyirəm. Rəhmətlik Abbas Zamanova Səlçuq universiteti fəxri doktorluq adı vermiş və onu Türkiyəyə dəvət etmişdi. Onu VİP zalında böyük bir təntənə ilə qəbul etdik, Türk Standartlar Inistitunun qonaq evində yerləşdirdik. Ora düşən kimi Asiya xanıma yox, birbaşa Qəzənfər müəllimə zəng elədi. Dedi, Qəzənfər mən Ankaraya çatdım. Mənə 4 mərtəbəli bir bina veriblər, burda tək başıma qalacağam. Bu, Abbas müəllimin Qəzənfər müəllimə göstərdiyi diqqət idi. Abbas müəllim

Türkiyədə, sadəcə olaraq, bir alim kimi tanınmayıb, Türkiyə ilə Azərbaycan arasında sözün həqiqi mənasında körpü rolunu oynayan, körpü yaratmış bir insandır. O öz məhəbbəti, biliyi ilə Türkiyə ilə Azərbaycanı bir-birinə yaxınlaşdırıb və kitabxanasını Atatürk Universitetinə bağışlayıb.

Mən o vaxt Qəzənfər müəllimin adını eşitmişdim. Amma sevinirəm ki, o, 90-cı ildə Türkiyəyə gələndə əyani tanış oldum və o zamandan bu yana onun gördüyü işlərə baxaraq fikirləşirəm ki, Qəzənfər müəllim, sadəcə, Azərbaycanın, Kərkükün yox, bütövlükdə türk dünyasının sərvətidir. Tanrı hər insanı yaratdığı zaman onu bir missiya yükləndirir. Qəzənfər müəllimin də boynuna türk dünyasının görkəmli bir alimi, görkəmli bir ictimai xadimi olmaq kimi bir missiya qoyulub.

Qəzənfər müəllimi təbrik edirəm və Folklor İnstitutuna da təşəkkür edirəm ki, bu cür alimlərimizi qiymətləndirir, dəyərləndirir və bu, gələcək nəsillər üçün də görk olur.

Muxtar Kazımoğlu: Kamran Əliyevin romantizmlə bağlı tədqiqatlarından bir detal yadıma düşür. O deyir ki, Abbas Səhhət heç də hər əsəri tərcümə etməyib. Bu əsər yaxşıdır, o əsər yaxşıdır – bu prinsiplə tərcümə etməyib. Abbas Səhhət o əsəri tərcümə edib ki, onun ədəbi məramına, romantizm prinsiplərinə uyğundur. Bu mənada, Qəzənfər müəllimin tərcümə etdiyi əsərlərin də mətləblə, məramla, məsləklə bağlılığı var. Məsələn, Qəzənfər müəllim Dümanın başqa əsərlərini bir tərəfə qoyub, ancaq «Qafqaz səfəri»ni tərcümə edib. Amerika alimi var-Benet, onun Azərbaycanla və bütövlükdə Qafqazla bağlı etnoqrafik etüdlərlə dolu bir kitabını tərcümə edib. Yəni Qəzənfər müəllimin dilçi, folklorşünas, ədəbiyyatşünas, tərcüməçi kimi fəaliyyəti bir mərama, bir məcraya yönəlmiş fəaliy-

yətdir. İstəyirəm, tərcüməçilik işinin nəzəriyyəsi ilə məşğul olan Şahin müəllimə – Şahin Xəlilliyə də qulaq asaq.

Şahin Xəlilli: Mən 11-ci sinifdə oxuyanda seçim qarşısında qalmışdım ki, hansı sahəyə gedim: milli filologiyamıza, yoxsa xarici ədəbiyyata. Hörmətli yazıçılarımızdan biri olan Nəriman Süleymanov dedi ki, xarici dillərə getməyin məsləhətdir. Dedim, orda kim var? Dedi, Qəzənfər müəllim Paşayev var. Mən bu sahəyə getdim və Qəzənfər müəllimin tələbəsi oldum. Mən indi də müəllim kimi «dərsdən qaçıb» gəlmişəm, amma tələbə də olanda bəzən başqa dərslərdən qaçıb Qəzənfər müəllimi mühazirələrinə qulaq asmışam.

Qəzənfər müəllimlə bağlı ürəyimdə yer tutan yaxşı anlar, sözlər var. Bir dəfə mənə dedi ki, filan müdafiyəyə gəlmədin, görmədim səni. İzah vermək istəyəndə dedi, yox, ürəyim səni istəyirdi. Mən də dedim, istəkli olasan, Qəzənfər müəllim.

Qəzənfər müəllim ingilis və Amerika ədəbiyyatının bilicisidir. Mən bunu nəyə görə deyirəm? Çünki o, bizim tərcümə ədəbiyyatında, ingilis dilindən Azərbaycan türkcəsinə tərcümə sahəsində də külüng vuran fədai, cəfakeş alimimizdir. Qəzənfər müəllimin Amerika alimindən tərcümə etdiyi "Necə yaşayasan, yüzü haqlayasan" kitabının rəyçilərindən biri də mən olmuşam. Qəzənfər Paşayev təkcə tərcümələrlə yox, eyni zamanda ingilis və Amerika ədəbiyyatının tədqiqi ilə məşğul olan gənc tədqiqatçıların ən yaxın məsləhətçisi və opponentlərindən biridir. Elə mənim öz seçimimdə də, Oldriclə bağlı mövzunun axtarışında da mən Qəzənfər müəllimin xidmətini xüsusi qeyd etmək istərdim. Təkcə mənim yox, onlarla insanların ədəbiyyata gəlişində, xarici ədəbiyyat sahəsində araşdırmalarında, məncə, böyük xidmətləri olub. Çinlilərin bir sözü

var. Deyir, bir balığı yesən, bir günə bəs edər. Amma adam var ki, onunla bircə gün görüşsən, ömrün boyu sənin bəsindir. Qəzənfər müəllimdə də belə bir ecazkarlıq, belə bir tilsim var. Mən bu gün elə ona görə gəlmişəm ki, bir daha Qəzənfər müəllimi ürəkdən təbrik edim.

Paşa Kərimli: Mənim əzizlərim, hörmətli qonaqlar. Sizin hamınızı burda salamlayıram. Mən bilirəm ki, burdakı qonaqların əksəriyyəti Folklor İnstitutundandır, eyni zamanda başqa yerdən gələnləri də, bir sözlə – hamını səmimi qəlbdən salamlayıram. Muxtar müəllimə də demişəm ki, belə gözəl məclislər olanda bizi yaddan çıxartmayın. Belə məclislərdə can-dildən iştirak etməyə hazırıq.

Müxtəlif səbəblərdən bura gələ bilməyən çox adamlar mənə dedilər ki, biz necə edək ki, Qəzənfər müəllimi təbrik edə bilək. Onlardan biri Yazıçılar Birliyinin katibi Arif Əmrahoğlu idi. Qəzənfər müəllimə yubleyində təbii bir səmimiyyətlə onu bircə kəlmə sözlə də olsa təbrik etmək istəyən adamların sayı çoxdur. Bu faktın özü Qəzənfər müəllimin şəxsiyyəti haqqında çox söz deməyə imkan verir. Muxtar müəllim sözü başlayanda, haqlı olaraq, Fizuli ilə başladı. Fizulinin belə bir sözü var ki, «Məndə Məcnundan fizun aşiqlik istedadı var, // Aşiqi sadiq mənəm Məcnunun ancaq adı var». Burdakı «aşıqlik isdedadı» ifadəsinə diqqət yönəltmək istəyirəm. «Aşiqlik istedadı» bəlli məsələdir: bizim bütün ədəbiyyatımız, lirikamız bunun üzərində qurulub. Ancaq həyatda bir yaşamaq istedadı da var. İnsanlarla ünsiyyət qurmaq, əlaqə saxlamaq istedadı da var ki, bu istedad Qəzənfər müəllimin boyuna biçilmişdir.

Muxtar müəllim məsələni çox düzgün qoydu ki, hərə Qəzənfər müəllimin çoxyönlü fəaliyyətinin bir tərəfindən da-

nışsın və bununla onun şəxsiyyətinin, yaradıcılığının müxtəlif tərəfləri əhatə olunsun. Mən də çalışıb qısa danışacağam ki, başqaların da söz qalsın.

Qəzənfər müəllimi bir şəxsiyyət kimi belə xarakterizə etmək istərdim: onun səmimiyyəti çox cəlbedicidir. Şəxsən mən özümə görə deyirəm; Muxtar müəllim təklif edəndə ki, gəlin Qəzənfər müəllimin yubileyini keçirək, üzüm güldü. Mən inanıram ki, burda oturanların çoxu, elə burda olmayanlar da hamısı eyni hissləri keçirirlər. Hamı özünə borc hiss edir ki, Qəzənfər müəllimi, heç olmasa, bircə kəlmə xoş sözlə təbrik etsin. Böyük alimlərimiz var. Bəyəm onların hamısını belə səmimiyyətlə təbrik etmək istəyirikmi, onların yubileyləri bizim yadımıza düşürmü? Rəsmi təbriklə səmimi təbrik etməyin arasında bir fərq yoxdurmu? Bu, elə hissiyatdır ki, o dəqiqə bilinir. Təbriki min cür demək olar, amma səsdən başqa adamın üzünün ifadəsi də var. Bu, ancaq böyük adamlara, böyük şəxsiyyətlərə, xoşbəxt adamlara nəsib ola bilər. Mən bu xoşbəxtliyi Qəzənfər müəllimdə görürəm.

Bir də o cəhəti demək istərdim ki, Qəzənfər müəllim həm də bizim çox görkəmli yazıçımızdır. Onun "Altı il Dəclə-Fərat sahillərində" əsərini yadınıza salmaq istəyirəm. Onda biz cavan idik. O vaxt həmin əsər camaat arasında elə bir maraqla qarşılanmışdı ki... İndi məgər belə bir əsər varmı? Ondan sonra Məmməd Aslanın ondan təsirlənərək "Ərzurumun gədiyinə varanda" əsəri çıxdı, amma o ləzzəti vermədi. O əsər, doğrudan da, böyük ədəbiyyat nümunəsi idi. Bizim çoxumuz yazmağı Qəzənfər müəllimdən öyrənmişik. Bütün bunların hamısının yanında bir cəhəti də demək istəyirəm. Bizim gənclərə bir şeyi nümunə gətirmək istəyirəm. Bizdə tez-tez verilmiş plan işlərinin müzakirəsi olur. Birinə başqa istiqamətdən iş verəndə

deyir, yox, mən bunu bacarmaram, mən bunu görə bilmərəm. Onda cavanlara Qəzənfər müəllimi nümunə gətirirəm. Deyirəm, sən tutduğun istiqamətdən bir balaca kənara çıxmaq istəmirsən, amma Qəzənfər müəllim ingilis dilini öyrəndi, ingilis dili mütəxəssisi oldu, Azərbaycan klassik ədəbiyyatını öyrəndi, Azərbaycanın folklorunu öyrəndi, tədqiq elədi. Ərəb dilini öyrəndi, bizim ədəbiyyatımızın nəhəng bir qolunu qoşdu bizim ədəbiyyata. Bütün bunların hamısını bir adam elədi. Siz isə bir tədqiqatdan bir balaca kənara çıxmaq istəmirsiniz. Sovet dövründə bir ifadə vardı: "nəsillərə hörmət". Mən bu ifadəni tam mənası ilə Qəzənfər müəllimə aid edirəm.

Qəzənfər müəllim. Mən inanıram ki, bu qədər məhəbbətdən sonra siz yüz il yaşamasanız, böyük haqsızlıq olar. Çünki siz bizim hamımıza lazımsınız.

Kamran Əliyev: Professor Qəzənfər Paşayevin adı nəinki bizə, bu coğrafiyaya, şübhəsiz ki, bir az da böyük coğrafiyaya – Şərq coğrafiyasına bəlli bir isimdir. Qəzənfər müəllim haqqında danışmaq, əslində, bizim müasir dövrümüzün ən yaxşı, ən zəhmətkeş ziyalısı və şəxsiyyəti haqqında, yaradıcısı haqqında danışmaq deməkdir. Burada Seyfəddin Altaylı professor Abbas Zamanovun adını çəkdi. Mən ilk dəfə Qəzənfər müəllimlə Abbas müəllimin evində görüşmüşəm. Qəzənfər müəllimlə Abbas müəllimin çox yaxşı ünsiyyəti və yaradıcılıq təmasları vardı. Həmin vaxt Abbas müəllim Qəzənfər müəllimi yola salandan sonra mənə bir cümlə söz dedi. Dedi ki, çox işlək adamdır. O söz indi də mənim yaddaşımda qalıb. Qəzənfər müəllim bütün həyatını yalnız və yalnız səmərəli fəaliyyətə yönəldibdir. Yəni onun bütün kitabları faydalı əsərlərdir. Heç biri qırağa qoyulası əsər deyil. Əslində, Qəzənfər müəllim haq-

qında danışmaq müasir ədəbiyyatın, müasir folklorun problemlərindən danışmaq deməkdir. Məsələn, Qəzənfər müəllim Nəsimidən də yazır, folklor materiallarından da yazır. Folklor və yazılı ədəbiyyat prizmasından Elçinin yaradıcılığı ilə bağlı silsilə məqalələr yazdı. Bunlar çox yaxşı qarşılanır. Yəni Qəzənfər müəllim bu sahədə sözün həqiqi mənasında peşəkar kimi çıxış edir və peşəkar olmaqda bizə nümunədir.

Qəzənfər müəllim həyatı və şəxsiyyəti ilə monolit bir insandır. Məsələn, mən istəyirəm ki, yüngülvarı sizə nümunə gətirəm. Bir neçə il bundan qabaq yayda dincələndə təsadüfən Qəzənfər müəllimlə üz-üzə gəldim. Əhvalımız da yaxşı idi. Mən Qəzənfər müəllimə dedim ki, tək gəlmisiniz? Qəzənfər müəllim o dəqiqə mənə dedi ki, xeyr, mən həyat yoldaşımla gəlmişəm. Bir az da durdum baxdım Qəzənfər müəllimə diqqətnən. O, bir cümlə də əlavə elədi, dedi: "Mən hara gedirəmsə, həyat yoldaşımla gedirəm". Sonra gördüm ki, məni qınamaq istəyir, dedim ki, mən də həyat yoldaşımla gəlmişəm. Yəni bu şəkildə Qəzənfər müəllim sözün həqiqi mənasında ünsiyyətcil bir insandır. Mən dönə-dönə özümə deyirəm ki, insanlar gərək bir-biriylə ünsiyyətdə olsunlar, bir-birini başa düşə bilsinlər. Əgər, doğrudan da, insanlar bir-birini başa düşə bilsələr, bizim heç bir problemimiz ola bilməz. Bizim problemimiz ədəbiyyatda da, elmdə də, sosial həyatda da bir-birimizi başa düşməyimizdən irəli gələn məsələdir. Əgər biz başa düşsək, heç bir problem çıxmaz. Qəzənfər müəllimin ünsiyyətcil olmağı onun bütün yaradıcılığına axıb gedibdir. Siz danışanda yadıma Qəzənfər müəllimin hansısa məqaləsində bir məktubu yadıma düşdü. Bu, təxminən, səksəninci illərdə olan məktub idi, Mikayıl Azaflıya yazılmış bir məktubdur. Orda çox maraqlı bir məsələyə toxunur. Qəzənfər müəllim yazır ki, biz sənin üçün te-

leviziyadan əlli dəqiqəlik vaxt aldıq (Bunu sevincnən deyir.). Çox gözəl bir veriliş olacaqdır. Sonra əlavə edib deyir ki, Zülfiyyəni və bir də Nizamini də gətirərsiniz. Nizaminin adının qabağında mötərizə arasında yazır: «şəyird». «Şəyird» sözündən mən başa düşdüm ki, Qəzənfər müəllim aşıq sənətinin mahiyyətini düzgün bilir, yəni aşığın özünü onun şəyirdinnən kənarda təsəvvür eləmək olmaz, düzgün deyil. Biz sadəcə olaraq deyirik, amma onun mahiyyətini ortaya qoymuruq. Ustad aşığın gərək şəyirdləri olsun, onları yetişdirə bilsin. Məktubunda mötərizədə yazır ki, şəyirdini də gətirərsən, camaat görsün ki, necə olur bu məsələlər. Bir-iki cümlədən sonra yazır ki, Qurbanı da tapıb gətirərsiz. Bir qədər sonra yenə yazır ki, aşıq İmranla Əkbəri də, qazaxlı Aşıq Hüseyni tapıb gətirərsiz. Yəni Qəzənfər müəllim bir məktubla hamını bir yerə yığmağı bacarır. Bu, böyük bir ürək sahibi deməkdir. Bəzən olur ki, bir insan üçün müəyyən imkan yaranar, o, bu imkandan özü üçün istifadə edər. Amma imkan yaranıbsa, adamlar üçün istifadə etmək böyük ürək tələb edir. Qəzənfər müəllim belə bir ürək sahibidir.

Hamımız Kərkük haqqında danışırıq. Hamımız da yaxşı bilirik ki, o bayatıları, o dünyanı birinci dəfə Qəzənfər müəllim elan elədi. “Altı il Dəclə-Fərat sahillərində”. Biz o dövrdə Sır-Dəryaynan Amu-Dəryanı tanıyırdıq ki, bir yerdən axıb gəlsin, eyni yerə də tökülsün. Qəzənfər müəllimin təqdimatında Azərbaycan ziyalısı, Azərbaycan gəncliyi təzə bir çayı kəşf elədi. Yəni Dəclə və Fəratı kəşf elədi ki, belə bir çay arası var, qədim insan yaşadığı ərazi var, Şumer, Mesopotamiya, Babilistan var. Eyni zamanda o bayatıların ki, natamam misrası var idi, o, qəribliyin simvolu kimi gəldi bizim təsəvvürümüzə.

Mən Qəzənfər müəllimin Kərkükü kəşfini Kolumbun Amerikanı kəşf etməsinə bənzədirəm. Amma Kolumb o kəşfi

edəndə təmannalı eləmişdi. Kraldan pul alıb getmişdi ki, mən onu kəşfi edərəm. Amma Qəzənfər müəllim Kərkükü təmannasız kəşf edib bizə gətirdi, adı ilə onları tanıdıb və bu gün də tanıdır.

Mən belə düşünürəm ki, Qəzənfər müəllim xeyirxah bir insandır. İstəyirəm, bir cümlə ilə onu deyim ki, Qəzənfər müəllim Abbas müəllimin qəbirüstü abidəsini, eyni zamanda akademik Məmmədəli Şirəliyevin qəbirüstü abidəsini öz imkanları hesabına düzəltdi. Əlbəttə, Prezidentin fərmanı ilə onlar yenidən düzəldilibdi, amma Qəzənfər müəllim heç kəsin o qəbirlərə yaxın düşmədiyi bir vaxtda səssiz, küysüz o abidələri düzəldib, onların ailəsinə bir töhfə kimi verdi.

Mən bu gün Qəzənfər müəllimi belə təsəvvür edirəm. Qəzənfər müəllim bu gün ziyalılığın klassik nümunəsidir. Yəni klassik bir şəxsiyyət nümunəsidir. Qəzənfər müəllim, bu gün biz sizə minnətdarıq ki, siz 75 yaş yaşayıbsınız və bugünkü bu tədbir baş tutubdur. Allahdan arzu edirik ki, sizə 100-dən yuxarı ömür versin. Sağ olun. Hamınıza təşəkkür edirəm.

Əlirza Xələfli: Baxıram ki, Azərbaycanın elmi elitası Qəzənfər müəllim haqqında necə ürək dolusu, böyük sevgi ilə danışır. İnsanlar hər şeyi bölüşməyə razı ola bilirlər, amma sevgini bölüşməyə çox çətinliklə razı olurlar və yaxud heç razı olmurlar. Ümumiyyətlə, ürəkdən, yəqin ki, heç barışmırlar da. Mən, açığı, əvvəllər elə bilirdim ki, Qəzənfər müəllim bircə məni sevir, mən də Qəzənfər müəllimi sevirəm. Sonra gördüm ki, Qəzənfər müəllim bütün Azərbaycan cəmiyyəti üçün qiymətli insandır. Üzü Kərkükdən bəri mənəvi dünyamızın hər tərəfindən Qəzənfər müəllimə əllər uzanır və Qəzənfər müəllim də o əlləri tutmağı bacarır; buna qüdrəti, gücü

çatır, o əlləri çox böyük sevgi ilə sıxır, onları yüksək qiymətləndirir.

Muxtar müəllimin dəyərli bir sözünü yadımda saxladım ki, burda əsas məqsəd odur ki, biz yubilyarın xarakterik cəhətlərini, portretini kifayət qədər cıza bilək. Bir vaxt bu tədbirin xronikası bir yüz ildən sonra, iki yüz ildən sonra hansısa bir rəssamın əlinə düşəndə qoy o, bizim müasirimiz olan klassiki kifayət qədər görə bilsin. Mən, doğrudan da, böyük duyğu ilə deyirəm ki, Qəzənfər müəllimin portreti müxtəlif insanların görüşlərində, obyektivində aydın görünür. Burdakı müəllimlərin bir çoxu ilə yaxından şəxsi tanışlığımız olmasa da, mən bu alimlərin hər birinin təfəkkürünü çox yaxşı bilirəm; kim necə düşünür, o məsələlər mənə çox aydındır. Ən azı, ona görə ki, onlar həm də mənim təmsil etdiyim qəzetin təkcə oxucuları yox, həm də müəllifləridir.

Qəzənfər müəllim, sizin İraqla, Kəlküklə bağlı müntəxabat xarakterli kitablarınızın hamısını oxumuşam. Əslinə qalsa, mənim bu gün ayaq üstə durmağımda, deyərdim ki, əziz müəllimlərimlə birlikdə sizin kitablarınızın da çox böyük rolu və əhəmiyyəti olub. Mən Qəzənfər müəllimə zəng eləyəndə deyirəm ki, eşq olsun Azərbaycan ədəbiyyatının Şərqə körpüsünə. Amma bu gün artıq mən inamla deyə bilərəm ki, Qəzənfər müəllim təkcə Şərqə yox, dünyaya körpüdür, Qərbə körpüdür.

Əlbəttə, biz onun tərcümə əsərlərinin hamısını oxumuşuq. Aleksandr Düma dünyanı gəzən adam idi. Xüsusi ilə Şərqi də, Qafqazı da gəzmişdi. Çox dəyərli bir əsər yazıb və burada çox haqlı vurğulandı ki, Qəzənfər Paşayev nə üçün məxsusi olaraq "Qafqaza səfər" və yaxud da "Necə yaşayasan, yüzü haqlayasan» əsərlərini Azərbaycan dilinə tərcümə edib. "Necə yaşıyasan, yüzü haqlayasan" əsəri nəhəng bir ensiklo-

pediyadır. Bu günün özündə də kifayət qədər tədqiqata cəlb olunmalı bir ensiklopediyadır həmin əsər.

Yeri gəlmişkən, təklif olaraq belə bir fikir də deyirəm ki, müasirlərimiz olan klassiklərin yaradıcılığını öz zamanlarında sistemli şəklidə, akademiya xəttiylə, müxtəlif elmi tədqiqat institutlarının xəttilə tədqiqata cəlb etmək məsələsi, elə bil ki, bir qədər arxa palandadır, ya da çox nadir hallarda bu məsələlər diqqətə çəkilir. Mən səmimiyyətlə deyirəm ki, iki böyük Qəzənfər (*yubilyar Q.Paşayev və dilçi prof. Q.Kazımov – tərtibçi*) mənim dostlarım, müəllimlərim, ustadlarımdır. Dostluq xatirinə demirəm, Azərbaycanın qüdrətli bir alimini öz sağlığında bir institut səviyyəsində, elmi tədqiqat səviyyəsində araşdırma niyə gecikməlidir, niyə olmamalıdır? Rəhmətlik Çingiz Aytmatov deyirdi ki, biz çox vaxt klassikləri keçmişdə axtarırıq. Mən fəxr eləyirəm ki, bu gün Azərbaycan elminin nəhəglərilə, klassiklərilə bir zəmanədə yaşayıram, bir dövrdə yaşayıram. Onlar mənim müəllimim olub, ustadım olub. İndi bu alimlərin, mənə belə gəlir ki, artıq sistemli şəkildə tədqiqata cəlb olunma vaxtıdır. Mən əsərlərimdə təkrar-təkrar Qəzənfərlərin adını çəkirəm. Orda belə bir beyt də var:

İki Qəzənfərin sözü bir olsa,
Vətənə gün doğar, aydınlıq gələr.

İndi iki Qəzənfərin sözü bir ola bilər. Şaha, şirə və şairə güvənsən, günün alnına doğar. Ən müxtəlif şəkildə Qəzənfər müəllim bizim mənəvi qida mənbəyimizdir, ruhumuzdur.

Qəzənfər müəllim çox böyük humanistdir. Özü də nadir adamlardandır ki, həm siyasi elita dairələrində, həm də elmi və ədəbi aləmdə çox böyük sevgiyə sahibdir. Mən hesab edirəm ki, bu. özü də böyük missiyadır.

Türkün çətinliyi atın belinə qalxanacandır. Qəzənfər müəllim atlı türkdür. Eşq olsun ona.

Muxtar Kazımoğlu: Əziz dostlar, bayaq qeyd elədik ki, Qəzənfər müəllim aşıq musiqisini çox sevir və onun yaradıcılığında aşıq sənəti xüsusi yer tutur. Qəzənfər müəllim yazır ki, Kərkük folklorunda aşıq sənəti öləziməkdədir. Qəzənfər müəllim bunun iki səbəbini göstərir. Səbəblərdən biri, Qəzənfər müəllimin fikrincə, budur ki, Kərkük Azərbaycanla, Azərbaycan türkləri ilə tarixi əlaqələrini itirir, ona görə bu sənət orada yavaş-yavaş öləziməyə başlayır. Qəzənfər müəllimə görə, ikinci səbəb də budur ki, Kərkükdə aşıqlar qəribsəyib yavaş-yavaş şəhərlərdən kəndlərə köçürlər, beləliklə, auditoriya zəifləyir və sənət tədricən zəifləməyə başlayır. Bu modeli biz Azərbaycanın bəzi bölgələrinə də tətbiq edib o cür nəticələr çıxara bilərik. Məsələn, Naxçıvan o silsiliyə daxil olan bölgələrimizdən biridir. Aşıq mühitləri ilə əlaqələr kəsildiyinə, aşıq sənətinə maraq göstərən auditoriya zəiflədiyinə görə Naxçıvan bölgəsində də bu sənət öləziməyə başlayıb. Halbuki otuzuncu illərdə Naxçıvanda aşıqların qurultayı keçirilib.

Qəzənfər müəllim aşıq mühiti ilə bağlı olan konkret coğrafi əraziləri diqqət mərkəzinə çevirir. Məsələn, Tovuzun Bozalqanlı kəndini. Məlumdur ki, o kənddən neçə-neçə nəhəng aşıq çıxıb. O aşıqların, zarafatla desək, ən balacası Aşıq Əkbərdir. Qəzənfər müəllim o kəndi xarakterizə etmək istəyir. Yazır ki, kolxozlaşma, kollektivləşmə dövrüdür. Gəlirlər, adamları kolxoza yazsınlar. O deyir, mən sənətkaram, məni kolxoza yazmaq olmaz, bu deyir, mən sənətkaram, məni kolxoza yazmaq olmaz. Sənətkarlara da böyük hörmət, ehtiram olduğu üçün onları kolxoza yazmırlar. Axırı, deyirlər, bu

kənddə kolxoza yazılası bir adam yoxdumu? Deyirlər, burda bir rus var – Fedya, gedin onu yazın kolxoza. Gedirlər Fedyanın yanına. Fedya dərhal deyir, arvad, o sazı gətir bura. Fedya sazı götürüb deyir:

Vurulmuşam telli saza,
Öz adımdı Fedya mənim.
Ustadımdı Aşıq Mirzə,
Şəyirdimdi Nadya mənim.

Qəzənfər müəllim bu məzəli əhvalatla göstərmək istəyir ki, kənd uşaqdan böyüyə bir auditoriyadır. Aşıq orda özünü dəryada balıq kimi hiss edir. O auditoriya yoxdursa, aşıq da yoxdur. Mən istəyərdim ki, sözü Elxan Məmmədli davam elətdirsin. Elxan müəllim aşıq mühitinin canlı şahidi və tədqiqatçısıdır.

Elxan Məmmədi: Əvvəla, qeyd etmək istəyirəm ki, burda çox gözəl məruzə və çıxışlar oldu. İstər Muxtar müəllimin, istər İsrafil müəllimin, Paşa müəllimin, elə dostum Əlirza müəllimin, Kamran müəllimin cıxışları əməlli bir məruzəni xatırladır. Elə bil ki, bir elmi konfransdır. Bu mənada mən təklif edirəm ki, burdakı bu çıxışlar yazıya köçürülsün və "Qəzənfər Paşayev: 75" adlı bir gözəl kitabca hazırlansın, elə bilirəm, alınar. Burda hamı Qəzənfər müəllimi eyni dərəcədə istəyir. Qəzənfər müəllim də fərq qoymadan özünə yaxın bildiyi adamları toplayıb bura və hətta hər bir kəsin ürək sözləri ona qarşı ürək sözləri məhəbbətin çoxluğundan olduqca təbii alınır. Mən çalışacam, Qəzənfər müəllimlə bağlı xoş sözlərimi bir qədər ixtisar edim, reqlamentə əməl edim. O vaxt Qəzənfər müəllimin dissertasiyası bizim şöbədə müzakirə olundu, biz hamımız oxuduq, xüsusən də Bəhlul Abdulla ilə bir

yerdə. Bizim üçün bir örnək oldu, gözəl də müdafiə elədi. Ona qədərki işləri məlumdur. “Altı il Dəclə-Fərat sahillərində” əsəri də bir örnək oldu. Biz, demək olar ki, cavanlıqdan, gənclikdən Qəzənfər müəllimdən öyrənə-öyrənə gəlirik və bu gün də təmkinli olmağı, ağır olmağı, hər şeyə reaksiya verməməyi Qəzənfər müəllimdən öyrənməkdə davam edirik.

Bizim onunla aşıq yaradıcılığı ilə bağlı çox sıx əlaqəmiz olubdur. Bayaq adı çəkilən Azaflı Mikayılın külliyatını Qəzənfər müəllim hazırlamışdı. Bir gün zəng elədi ki, Elxan, orada təcnislər var, sənin də bu sahədən yazıların, dissertasiyan var. Mən istəyirəm ki, təcnis yaradıcılığını sən özün oxuyasan, rəyçi olasan. Elə oldu ki, mən kitabı təmiz oxuyası oldum və fikrimi dedim. Dedi, onda səni redaktor qoyuruq. Dedim, o məsuliyyəti mən üzərimə götürmürəm Qəzənfər müəllim. Qoy redaktor başqası olsun, mən rəyçi olaram. Kitab da səkkiz yüz səhifə idi. Qəzənfər müəllimin və onun qardaşı qızı, millət vəkili Qənirə xanımın çoxuna görünməyən tərəfləri var ki, el şairlərinin və aşıqlarının külliyatını nəşr etdirməkdə çox böyük fəallıq göstərirlər. O vaxt mən Sadıxlı İsmayılın külliyatını nəşrə hazırlayanda Qəzənfər müəllimdən məsləhətlər alırdım. Demək istəyirəm ki, itib-batmış insanlara, sahibi olmayan aşıqlara arxa durmağın özü də böyük işdir, böyük insanlıqdır. Qəzənfər müəllim bu xeyirxah işi bu gün də davam etdirir.

Mən bir məqamı istəyirəm diqqətinizə çatdırım. Bəhlul Abdulla ömrünün son günlərini ağır keçirtdi və İrana getmək qərarına gəldi. Mən onda Qəzənfər müəllimin necə xeyirxah bir insan olduğunu bir daha gördüm. İrandakı dostlarıma zəng elədim, Bəhlulu qarşıladılar, bir ay onun nazını çəkdilər və bütün maddi haqq-hesabın əksəriyyətini, mən deyərdim ki,

Qəzənfər müəllim ödədi. Yəni xəstəxananın hər bir şeyi, səfirimizlə danışmaq və s. Qəzənfər müəllimin hesabına başa gəldi. Onun ruhu, elə bilirəm ki, həmişə Qəzənfər müəllimə duaçıdır.

Qəzənfər müəllim, dünyadan köçənlərin ruhu duaçı olsun və əl tutduğunuz insanların alqışı həmişə Sizi uca saxlasın. Sağ olun. Borçalı Aşıq Aslanın repertuarı əsasında hazırlanmış bu kitabı sizə hədiyyə edirəm (*Kitab təqdim edilir*).

Qəzənfər Paşayev: Bəhlul müəllimdən söhbət düşdü. O, yaxşı folklorşünas idi. Təkcə Quzey Azərbaycanın yox, həm də Güney Azərbaycanın folklorunu yaxşı tədqiq eləmişdi. İndi onun bir biblioqrafiyası çıxır. Onu mən təşkil eləmişəm və bir xatirə kimi qalsın. Çoxumuz o məxəzləri bilmirik, onun hamısı həmin biblioqrafiyada var.

Rafiq İmrani: Muxtar müəllim, çox sağ olun ki, bu gün fürsət yaratdınız, biz çox istədiyimiz bir insanın haqqında iki kəlmə də olsa öz ürək sözümüzü deyək. Qəzənfər müəllim haqda saatlarla danışmaq olar, ürək doludur.

Qəzənfər Paşayev – bu ad həm televiziya ekranlarından, həm də elmi ədəbiyyatdan, gündəlik mətbuatdan bütün xalq kütləsinə yaxından tanışdır, bizim cərgədə olan alim dostlarımız üçün bu ad əzizdir və doğmadır. Qəzənfər müəllimin yaradıcılığı haqqında çox ətraflı söhbət oldu və elmin ayrı-ayrı sahələri üzrə Qəzənfər müəllimin gördüyü çox önəmli işlər haqqında müəyyən informasiyalar verildi bizə. Mən isə Qəzənfər müəllimin Kərküklə bağlı bir ideyasını istəyirəm bu gün yoldaşlara çatdıram. Vaxtı ilə, bilirsiniz, sərhədlər bağlı idi, İraq haqqında bizim heç bir məlumatımız yox idi. İraq eli-

nə ilk qapını açan, sözsüz ki, Qəzənfər müəllim oldu. Qəzənfər müəllim oradan qayıdanda biz onda gənc idik, tədqiqata təzə başlayırdıq. Mən də musiqiçi olduğum üçün elə ilk görüşlərimizdə Qəzənfər müəllimdən Kərkük musiqisi, xalq mahnıları, xoyratlar və digər məlumatları almaq istəyirdim. Dəfələrlə bizim Qəzənfər müəllimlə görüşlərimiz oldu. Hər dəfə onun çox mənalı və elmi əsaslı söhbətləri, Bəndəroğlunun yaradıcılığı haqqında dediyi fikirləri biz bir örnək olaraq götürdük. Sonradan mən bu sahəyə baş vuranda gördüm ki, bizim yazdıqlarımız bir qırağa, Qəzənfər müəllimin bizə söylədiyi, bizə anlatdığı məsələlər yeni bir coğrafiyanı açır bizim üçün. Yəni Azərbaycanın qədim musiqi tarixi, o cümlədən etnomusiqişünaslıq sahəsində biz çox işlər görə bilərik. Mən bu gün çox minnətdarlıq hissi ilə bildirmək istəyirəm ki, məhz Qəzənfər müəllimlə olan söhbətlərimizin əsasında Azərbaycan musiqi tarixinin dörd cildliyini nəzərdə tutmuşam hazırlıyam. Onun ən qədim dövrləri, bilavasitə şumer mədəniyyəti ilə bağlı olan hissələri məhz sizlə olan söhbətlərimizin əsasında formalaşıb.

Şumer dövrü çox qədimdir. O vaxtlar 80-cı illərdə biz Azərbaycanın Şumerlə bağlılıq məsələlərini ortaya atanda İqrar Əliyev və onun ətrafında olan bəzi yoldaşdar bizə qarşı, necə deyərlər, çox mübarizələr apardılar. Dedilər ki, Bakı hara, İraq hara. Qəzənfər müəllimin böyük köməkliyi onda oldu ki, o qapını açandan sonra, o varlığı bütün xalqa tanıtdırandan sonra biz artıq daha böyük ürəknən bu sahədə işləməyə başladıq. Qəzənfər müəllim, sizin bilavasitə zəhmətinizin hesabınadır ki, biz İraq kərkükləri haqqında müəyyən məlumatları toplayandan sonra mən İsveçdə yaşayan bir kərküklü ilə əlaqə saxladım və o mənə qucaq dolusu iki böyük banderol göndər-

di. Həm videolent yazıları, həm də audiodisk yazıları. Kərkük muğamlarına, xalq mahnılarına diqqət yetirəndə gördüm ki, onlar da bizim kimi segahı oxuyanda və yaxud muğamı oxuyanda zildən bir neçə ağız oxuyur, sonra keçir xalq mahnılarının ifasına. Bu, onu göstərdi ki, bu ənənə o xalq tərəfindən də qorunub saxlanılıb. Biz indi sizin o yazıların əsasında Urmiya aşıq sənətini çox dərinliklərini çalışdıq öyrənək. Çünki dağın bir tərəfi kərküklərdirsə, bir tərəfində də Urmiya aşıq mühitidir. Bu da bizə yardımçı oldu ki, öz tədqiqatlarımızda sizin bizim üçün açdığınız o qapıların izi ilə gedək.

Mən vaxtınızı çox almaq istəmirəm. Bu gün uzun illərdən bəri işlədiyim "Muğam fəlsəfəsi" əsərini istəyirəm disklərlə bir yerdə sizə təqdim edəm. Ürəyiniz istədiyi muğamlar burda var. Onu da qeyd edim ki, burada dilçilik və musiqi dili məsələsi də qoyulub. İnanın ki, bunların hər bir cümləsində sizin bizə göstərdiyiniz yolun izləri vardır (*Kitab və disk təqdim edilir*).

Möhsün Nağısoy: Hörmətli elm adamları, mən də bir ev sahibi kimi sizin hamınızı salamlayıram, «xoş gəlmisiniz» deyirəm. Hamınız bilrsiniz ki, bu bina adi bir bina deyil, burada çox böyük insanların ruhları yaşayır: Hüseyn Cavidin, Məmmədəmin Rəsulzadənin, Fətəli Xan Xoyskinin və s. Bu da əlamətdardır ki, Qəzənfər müəllim adi bir adam deyil, böyük bir şəxsiyətdir. Ona görə bizim üçün şərəfdir ki, onun yubileyi məhz bizim binada keçirilir. Bu tədbiri Folklor İnstitutu keçirir və minnətdaram ki, insanın qədrini sağlığında bilmək lazımdır. Bu ənənəni yaşatmaq lazımdır.

Tədbiri Folklor İnstitutunun keçirdiyinə görə bir atalar sözü ilə başlamaq istəyirəm: «İgidin adını eşit, özünü gör».

Mən Qəzənfər müəllimin adını eşitmişdim, kitablarını oxumuşdum. Özüm də 10 il Əfqanıstanda tərcüməçi işləmişəm və qürbətdə yaşayan adam vətənin qədrini daha yaxşı bilir. Ona görə o kitabı (*«Altı ilə Dəcla-Fərat sahillərində» – tərtibçi*) oxuyanda sanki mən öz həyatımı yaşadım. Bir də atalar sözü var. Deyirlər: «Filankəsi tanıyırsan? Deyir, yox, onunla yol yoldaşı olmamışam». Qəzənfər müəllimlə biz bir dəfə yol yoldaşı olmuşuq. Mən uzun müddət Naxçıvan Dövlət Universitetinin Müdafiə Şurasının üzvü olmuşam. Bir dəfə Qəzənfər müəllim orada opponent kimi iştirak edirdi. Onda mən gördüm ki, Qəzənfər müəllim həm böyük alimdir, həm də böyük insandır. Atalar deyir: «Alim olmaq asandır, insan olmaq çətindir». Doğrudan da, Qəzənfər müəllim əsl Azərbaycan ziyalısının nümunəsidir.

Siz folklorşünaslar onun fəaliyyətini folklorşünaslıq baxımından hər tərəfdən, hər yöndən işıqlandırdınız. Bizim də institutun əsas istiqaməti mətn hazırlamaqdır, mətnşünaslıqdır. Qəzənfər müəllim həm də mətnşünasdır. İmadəddin Nəsiminin İraq divanının nəşrə hazırlanmağı, elə bil ki, bizim işimizə bir köməkdir, təkandır, həm də bizi ruhlandırır. Qəzənfər müəllimin baxmayaraq ki, maşallah, 75 yaşı var, bu yaxınlarda mən «Ədəbiyyat qəzeti»ndə onun Hindistan səfəri haqqında yazdığını gördüm və bu, sübut edir ki, Qəzənfər müəllim cavanlıq ruhuyla yaşayır və yaşayacaqdır. Doğrudan da, Azərbaycan-Hindistan əlaqələri ayrıca dissertasiya mövzusudur və Qəzənfər müuəllim öz yazısıyla o sahədə də artıq bir cığır açır.

Qəzənfər müəllim, mən çox minnətdaram, sevinirəm və hesab edirəm ki, bu gün həyatımda ən xoş günlərdən biri olacaq. Yaşayın, yaradın və nümunə olun. Sağ olun, var olun.

Qurban Bayramov: Bir az əvvəl qeyd olunduğu kimi, Qəzənfər müəllimin yubileyini tarixi bir yerdə, Azərbaycan dövlətçiliyinin, Azərbaycan millətinin fəxr elədiyi bir binada qeyd edirik. Qəzənfər müəllimin 75 illiyi ilə əlaqədar bu il bir neçə tədbir keçirilib. Mən demək olar ki, onların hamısının iştirakçısı olmuşam. Onların heç birinin səmimiyyətinə, istiliyinə xələl gətirmədən burdakı istiliyin, burdakı elmi atmosferin, burdakı münasibətin, burdakı səmimiyyətin daha yüksək səviyyədə olduğunu qeyd edirəm. Burda çıxış edənlər də Qəzənfər müəllimi müxtəlif parametrlərdə təhlil elədilər. Qəzənfər müəllimin bir kitabı var, onun haqqında yazılan məqalələrin toplusudur. Həmin kitabda onun haqqında olan məqaləmdə belə yazmışam: "Qəzənfər Paşayev fenomeni müasirlərinin gözündə və sözündə". Bax o ədəbi mühiti mən burda gördüm. Burda elmin sayılan-seçilən imzaları var, şəxsiyyətləri var. Onların hamısının sözü səlahiyyətli sözdür, düzgün sözdür, qüvvətli sözdür. Həm səmimiyyət var, istilik var, həm də elmi dərinlik var.

Qəzənfər müəllim haqqında danışanda nəyə görə həmişə Kərkük yadımıza düşür? Rəhmətlik Bəhlul Abdulla onu "Kərkük pərvanəsi" adlandırmışdı. Sonra oxudum ki, Azərbaycanın 114 ən görkəmli alimi, ən görkəmli şəxsiyyəti, şairi Qəzənfər Paşayev haqqında gözəl sözlər, gözəl məqalələr yazıblar.

Qəzənfər müəllimi mən 70-ci illərdən tanıyıram. Ədəbiyyat İnstitutuna gəlib-gedərdi, Qasım müəllimlə, Abbas müəllimlə, Məmməd Cəfər müəllimlə, Mirzağa müəllimlə dostluq edərdi. Ona qeybdən gələn bir səs kimi baxırdıq. Doğrudan da, Qəzənfər müəllim qeybdən gələn bir səs kimi bizə qeyb olan, bizdən uzaq olan bir məmləkətimizi bizə təqdim elədi, tanıtdı. Rəhmətlik Yaşar Qarayevin məşhur bir sö-

zü var. Deyir ki, Azərbaycan dövləti çox böyük dövlət idi, siyasi sərhədlər parçalandı, doğrandı getdi. Folklor yeganə sahədir ki, Azərbaycan məmləkəti ilə türk dünyasını siyasi sərhədlərsiz birləşdirə bilir. Yəni sərhədlərin ona dəxli yoxdur. Bu mənada Qəzənfər müəllim bizim pozulmuş, məhv olmuş sərhədlərimizi Kərkük müstəvisində birləşdirdi. Folklor elə bir sehrli dünyadır ki, heç bir qəvi düşmən folklorumuzu əlimizdən ala bilməz. Bu mənada Qəzənfər müəllim çox böyük iş görüb.

Bu zalda olan adamların hamısı özünü elmdə təsdiq eləmiş adamlardır. Amma bir də var ki, sözün səlahiyyətini başa düşüb, qeyri-adi mövqeyə yüksələn şəxsiyyətlər. Misal üçün, mən Abbas müəllimi o cür şəxsiyyət kimi qəbul edirəm. KQB-nin, Sovet hökumətinin ciddi məqamlarında o, adicə poçt yolu ilə sərhədləri məhv eləmişdi, bizim ədəbiyyatımızı, bizim kitablarımızı bütün Şərqdə, bütün dünyada yaymışdı. Həmən yolun davamçısı Qəzənfər müəllim oldu. Mən Qəzənfər müəllimi, tutaq ki, Məmməd Arif, Məmməd Cəfər müəllim, Cəfər Cəfərov, Yaşar Qarayev, Abbas Zamanov səviyyəsində, miqyasında duran canlı ensiklopedik, fenomenal bir şəxsiyyət kimi qəbul edirəm. Eşq olsun ona. Onu təbrik edirik, ona can sağlığı arzulayırıq.

Qəzənfər müəllim folklorşünasdır, dilşünasdır, neçə dillər bilir: ingilis dili, fars dili, ərəb dili, rus dili. Lap bu yaxınlarda Hindistan kimi qədim tarixə, mədəniyyətə malik bir ölkədə böyük klassikimiz Nizaminin yaradıcılığını, həyatını ingilis dilində təqdim elədi. O şəxsiyyət ki, Azərbaycan ədəbiyyatını, Azərbaycan mədəniyyətini, Azərbaycan millətini, xalqını bütün səviyyədə təqdim eləməyi bacarır və təqdim edir, o adamın qədrini bilmək lazımdır. Folklor İnstitutu da sağ olsun

ki, belə insanları qiymətləndirir, onlara belə tədbirlər həsr edir. Qəzənfər müəllim, öpürəm səni, can sağlığı arzulayıram, uzun ömür arzulayıram.

Vaqif Sultanlı: Hamının yorulduğu vaxtda mən çox danışmaq istəmirəm. Amma belə fikirləşirəm ki, bu cür tədbirlərin keçirilməsi təkcə bir yaradıcı şəxsin həyat yoluna işıq salmaq üçün deyil, bütövlükdə ədəbiyyat haqqında, elm haqqında, sənət haqqında söhbət üçün imkanlar verir. Bu mənada Qəzənfər Paşayevin yaradıcılığı da çox uyğun gəlir. Qəzənfər müəllim elmdə bir ənənə yaradan şəxsdir. Yəni onun fəaliyyəti, alimliyi yalnız elmlə məhdudlaşmır. Bu alimliyin içərisində elmlə yanaşı bir əxlaq, insanlıq, cəsarət, həqiqət, vicdan var. Bu, Qəzənfər Paşayevin yaradıcılığı üçün səciyyəvi olan bir cəhətdir.

XX əsrin elminin ən böyük qüsurlarından biri onun emosiyalardan məhrum edilməsidir. Yəni quru nəzəri mühakimələrə söykənilməsidir. Qəzənfər Paşayevin yaradıcılığında elmlə bədiiyat birləşdirilir. Elm bədii düşüncə ilə hormoniyada təqdim olunur. İkincisi, bizim elmimizin XX əsrdə, xüsusən sovet dövründə ən böyük qüsurlarından biri onun türk dünyasından, türk sevgisindən, türk ruhundan məhrum edilməsi idi. Qəzənfər Paşayevin yazılarında biz bunu görmürük. Onun tədqiqatları türk coğrafiyasını əhatə edir və türk sevgisini gətirir. Türk sevgisi varsa, orda, şübhəsiz ki, bir milliyətçi düşüncə olacaqdır. Mən Qəzənfər Paşayevə böyük və yeni yaradıcılıq uğurları arzulayıram.

Muxtar Kazımoğlu: Vaqif müəllim dedi ki, Qəzənfər müəllim elm ilə bədiiyyatı birləşdirir. Deyirəm, Vaqif müəl-

limin sözünə qüvvət verib, məclisin ovqatına bir az poeziya qataq. Mən bilmirəm, Adil Cəmil şeir deyəcək, deməyəcək. Arzu edək ki, çıxışının gözünə bir balaca şeir də qatsın.

Adil Cəmil: Mən çox danışmayacam, çünki Qəzənfər müəllim haqqında olan fikirlərimi elə Qəzənfər müəllimin özünə demişəm.. Daha bu camaatı, bu insanları yormaq fikrində də deyiləm. Amma bir misal çəkəcəyəm. Bir nəfər Məşhədə gedir. Bir qapını döyüb deyir ki, Məşədi, burda Məşəd ziyarətgahı hardadı? Bu adam da çıxır deyir ki, ziyarətgah ordadı, amma mən məşədi deyiləm. Deyir, ə, nətəər? Mən gör haralardan gəlmişəm, məşədi olmaq istəyirəm. Burdan bura niyə Məşhədə getməmisən? Deyir, mən ona hələ hazır deyiləm. Mənim amalımla əməlimin arasında bir ziddiyət var. Bu baxımdan, Mən Qəzənfər müəllimlə tanış olduğum gündən, amalıyla əməlinin vəhdətdə olduğunu görmüşəm. Amalıyla əməli bir olan insanlar çox azdır.

İndi mən sizi yormadan Qəzənfər müəllimə həsr olunmuş bir şeirimi oxumaq istəyirəm:

Abu-zəmzəm qaynağı var,
O səhralar qurax deyil.
Düz deyirsən, professor,
İraq bizə iraq deyil

Dağıldı durna qatarı,
Sovuldu xurma qatarı,
Səpildi qırma qatarı,
Yersiz ölüm sınaq deyil.

Dərdimiz var, dağ adlayan,
Ahımız var, qəlb odlayan,
Başımızda bu çatlayan
Kim deyir ki, çanax deyil.

Nələr oldu, Allah, oy dad,
Kimsədən gəlmədi imdad,
Korun-korun yandı Bağdad,
Bu alov çil-çıraq deyil.

Qoparmadıq haray-həşir,
Dedik, dünya fikirləşir.
Sülh məramlı o mürdəşir
Xoş niyyətli qonaq deyil.

Füzulinin qəbri qərib,
Baş daşında qəm göyərib.
Bu dərd bizi yuyub-sərib,
Günümüz kef-damaq deyil.

Dəyişibdi orda həyat,
Qanlı axır Dəclə, Fərat.
Alim qardaş, sən yaz, yarat,
Gələcək gün uzaq deyil.

Muxtar Kazımoğlu: Bu gün Qəzənfər müəllim folklorşünaslıq üzrə Problem Şuranın sədridir. Həmin şuranın sədr müavini Mahmud Allahmanlı söz istəyir.

Mahmud Allahmanlı: Qəzənfər müəllimdən çox adamlar xeyirxahlıq görübdür: onlardan biri də mənəm. Nəsrəddin Tusi "Əxlaqi-Nasiri" əsərində yazırdı ki, elm adamlarını elmlərinin çoxluğu ilə deyil, işlərinin xeyirxahlığı, gördüklərinin faydalılığı ilə ölçün. Qəzənfər müəllimdə də həm elm, həm xeyirxahlıq, həm də faydalılıq birləşibdir. Qəzənfər müəllimi nəinki tanıyanlar, onunla qarşılaşanlar, hətta ondan kənar olanlar da onun adından yararlana biliblər. Qəzənfər müəllim bu cür böyük adamlardandır. Əbdüllətif Bəndəroğlu Qəzənfər müəllimin «İraq-Türkman folkloru» kitabı ilə bağlı belə bir fikiri vurğulayır ki, belə bir kitabı nəinki türkman elm adamları, hətta xarici alimlər də yazmayıbdır. Qəzənfər müəllimin təkcə «İraq-Türkman folkloru» kitabı yox, bütün kitabları bu mənada çox böyükdür. 1968-ci ildə çıxan «Kərkük bayatıları»ndan başlayaraq onun əsərləri və şəxsiyyəti haqqında yazılan yazıların hamısı Qəzənfər müəllimin böyüklüyünü, bir şəxsiyyət kimi nələrə, hansı amallara xidmət etdiyini aydınlıqla göstərir. Qəzənfər müəllim bu mənada bizim üçün, ədəbiyyatımız üçün, ictimai-siyasi mədəni mühitimiz üçün nümunədir. Qəzənfər müəllimin ayrı-ayrı kitabları, yaradıcılığı, onun gördükləri, bir şəxsiyyət kimi elədikləri hamımıza örnəkdir və bizim hamımız ondan lazımınca bəhrələnmişik. Qəzənfər müəllim Azərbaycan elmində, Azərbaycan ədəbiyyatının bugünkü vəziyyətində həm klassik ədəbiyyatımızı, həm folklorumuzu, həm tərcümə məsələlərimizi bütün tərəfləri ilə özündə birləşdirən çox az-az şəxslərdəndir. Bunların üzərinə Qəzənfər müəllimin bir şəxsiyyət kimi xeyirxahlıqlarını gələndə Qəzənfər müəllimin ucalığı, böyüklüyü qeyri-adi dərəcədə görünür. Həm də ictimai-siyasi mühitin bir qədər çətinliklərlə dolu olduğu vaxtlarda belə şəxslərə, belə şəxsiy-

yətlərə ehtiyac daha çox artır. Qəzənfər müəllim məhz, elə bil, Tanrının bu məqamda Azərbaycan ictimai-siyasi, mədəni mühitinin çətinliklərlə dolu olduğu vaxtlarda nümunə olaraq göndərdiyi şəxslərdəndir. Bu mənada, mən Qəzənfər müəllimi həmişə uca tutmuşam və ona uğurlar arzulayıram. Qəzənfər müəllim o uğurlarını, o böyüklüyünü bizə yaşatsın, bizə daha da görsətsin. Onun uğurlarına daha ətraflı sevinək.

Muxtar Kazımoğlu: Qəzənfər müəllim neçə-neçə həmkarımızın elmi rəhbəri olub. Şəxsən mənim və mənim kimi neçə-neçə adamın opponenti olub. İstəyirəm ki, Qəzənfər müəllimin yetirmələrindən birinə söz verim. Alimlər cərgəsinə Qəzənfər müəllimin elmi rəhbərliyi ilə qoşulan Səkinə Qaybalıyeva.

Səkinə Qaybalıyeva: Burda alimlərimiz Qəzənfər müəllimin zəngin elmi fəaliyyətindən danışdılar. Qəzənfər müəllim Kərküklə bağlı, Bəndəroğlunun təbirincən desək, hər biri bir şah əsər olan tədqiqatların müəllifidir. Qəzənfər müəllim sovet dönəmində, çox ağır bir dönəmdə, «milli» sözünün çox çətinliklə işləndiyi bir dövrdə vətənpərvərlik nümunəsi göstərərək çox böyük işlər görüb.

Mən istər bir insan kimi, istərsə də bir alim kimi çox şadam ki, Qəzənfər müəllimin yetirməsiyəm, onu daha yaxından tanımaq imkanım olubdur. Kiçik bir detala toxunmaq istəyirəm. İnstitutumuz tərəfindən Qarabağ bölgəsində ezamiyyətdə olanda orada qaçqınlarnan görüşmüşdük. Onda Həşim Məmmədli adlı bir insanın da evində olduq və ondan çox gözəl nümunələr topladıq. Həşim dayı biləndə ki, biz Folklor Institutundan gəlmişik, çox maraqlı bir hadisə danışdı. O dedi

ki, siz Qəzənfər müəllimi tanıyırsız, Qəzənfər Paşayevi? Mən dedim ki, əlbəttə, tanıyırıq, O dedi ki, biz Abdal Gülablıdan qaçqınıq. (Düzdü, bu insan elm aləmi, tədrislə əlaqəsi olmayan bir insandır, zəhmətkeş bir insandır.) O dedi ki, mənim Abdal Gülablıda çox böyük bir kitabxanam qalıbdır. Sovet dönəmində yeni çıxan kitabları alardım, ancaq kitabxanamda xüsusi yer ayırdığım Qəzənfər müəllimin kitabları idi. Mən çox təəssüf edirəm ki, o kitablar orda qaldı, ancaq mən Bakıya gedib o kitabların hamısını əldə elədim və gətirib kitabxanama qoydum.

Mən demək istəyirəm ki, Azərbaycanda çox tanınan şairlər, yazarlar var. Ancaq Qəzənfər müəllim bir alim kimi, həqiqətən də, böyük bir iş sahibidir, böyük bir elm adamıdır ki, onu bütün ictimaiyyət tanıyır.

Mən Qəzənfər müəllimə can sağlığı arzulayıram, uzun ömür arzulayıram.

İslam Sadıq: Qəzənfər müəllimin bu tədbirində çıxış eləməmiş getsəydim, yəqin ki, bunu ömrüm boyu özümə bağışlamazdım. Qəzənfər müəllimin haqqında hamının ürəyi doludu, hamının deməyə sözü var, özü də hətta hiss edirəm ki, sanki leksikonumuz çatışmır. Adamlar ürəyindəkini ifadə etməyə çətinlik çəkirlər.

Qəzənfər müəllim xoşbəxt bir ulduzun altında doğulub. Ona görə xoşbəxt adamdı. Mən bu günə qədər Qəzənfər Paşayevdən söz düşəndə kiminsə dilindən xoşagəlməz bir söz eşitməmişəm. Belə xoşbəxtlik hamıya nəsib olmur. Qəzənfər müəllim ən işıqlı ulduğun altında doğulub, o ulduzun bütün nuru, işığı Qəzənfər Paşayevin varlığına, ruhuna hopub. Qə-

zənfər müəllim gecənin zil qaranlığında da olsa, hər yerdən görünəcək, dörd bir ətrafa işıq saçacaq.

Biz uşaq olanda kəndimizin göylərində yazda, bir də payızda durnalar görünərdi. O durnalar yazda gəlirdilər, payızda qayıdırdılar. Böyük adamlar bizə deyirdilər ki, bu durnalar Bağdaddan gəlir, İraqdan gəlir, Kərkükdən gəlir. Payızda da deyirdilər ki, bu durnalar Kərkükə qayıdır, Bağdada qayıdır, İraqa qayıdır. Ancaq o durnaların niyə gəlib-getdikləri haqqında bizə heç nə demirdilər. Bir müddət keçəndən sonra o durnalar yoxa çıxdılar və bunu müxtəlif səbəblərlə yozdular. Ancaq mən bunun səbəbini tapdım. Həmin durnaları Azərbaycandan «küsdürən» Qəzənfər Paşayev oldu.

1986-1987-ci illərdə «Azərnəşr»də Qəzənfər Paşayevin «Kərkük folkloru antologiyası» kitabı çapa hazırlanırdı. Onda Qəzənfər müəllim tez-tez «Azərnəşr»ə gəlirdi. Kərküklə bağlı onu sorğu-suala tutur, maraqla dinləyirdik. Kitabın hələ əlyazmasını oxuyurduq. Ordakı hər bayatıdan, hər atalar sözündən, lətifədən Kərkükün ətri, qoxusu gəlirdi. Doğma bir nəfəs duyulurdu.

Bundan əvvəl Qəzənfər Paşayevin «Alıtı il Dəclə-Fərat sahillərində» kitabı çıxmışdı və əl-əl gəzirdi. O kitab oxuculara Kərkük haqqında nələr söyləmirdi! Bu kitabların hərəsi bir durnaya bənzəyirdi. Onların sayı günbəgün çoxalırdı. Elə o vaxtdan Qəzənfər Paşayevin öz «durnaları» qatar-qatar olub Azərbaycanı gəzdilər, evlərimizə gəldilər, stolüstü kitablarımız oldular. Sən demə, vaxtı ilə o durnalar Kərkükdən bizə xəbər gətirirmişlər. Bax o xəbərləri o durnalardan daha geniş mənada Qəzənfər Paşayev gətirdi və biz onları artıq durna dilində yox, öz dilimizdə oxuduq. O informasiyaları Qəzənfər Paşayevin kitablarından aldıq.

Hər bir söz adamının, yaradıcı adamın bir şah əsəri olur. Qəzənfər Paşayevin də çox əsərləri var, ancaq onun ən böyük, şah əsəri dünyada ən uzun körpü oldu. Dünyada ən uzun körpü: İraqdan Azərbaycana, Kərkükdən Azərbaycana, Azərbaycandan Kərkükə. Bu elə bir körpüdür ki, heç bir təbii fəlakət, heç bir insan gücü onu dağıda bilməz.

Qəzənfər Paşayevə öz durnalarının ömrü qədər ömür arzulayıram və durna haqqında bir şeirimlə fikrimi tamamlamaq istəyirəm:

Əl çatmaz, ün yetməz sanma o yeri,
Babamın qəbri var bilirəm orda.
Gecələr xəyalım gəzib dolaşır,
Səhərlər qayıdıb gəlirəm ordan.

Yaşıyır hələ də tarixim mənim
Durna yaddaşında, durna sözündə.
Bilmirəm, babamı görüb, görməyib,
Babamın əksi var durna gözündə.

Babamın dəftəri o gil lövhələr,
Babamın qələmi durna lələyi.
O gil lövhələrə dəymə, amandı,
Amandı, toxunma, qırma lələyi.

Durnalar – babamın ruhumu görən?!
Hər il gəlib bizə, dəyib qayıdır.
Durna ləhcəsində, durna dilində
Babamın sözünü deyib qayıdır.

Dilim «Kərkük» dedi, «Kərkük» söylədi,
Bu kəlmə ağzımda nə şirin daddı!
Nə bura qürbətdi durnalar üçün,
Nə durnalar bizə yad oğlu yaddır.

Hacı Loğman: Qəzənfər müəllimi gənclik illərindən tanıyırıq, «Altı il Dəclə Fərat sahillərində»n. Mənim düşüncəmə görə, mədəniyyətin ən böyüyü özünü qorumağı bacarmaqdır. Özünü qorumağı bacarmayan insan nə mədəniyyəti qoruya bilər, nə özünü qoruya bilər, nə də ünsiyyəti qoruya bilər. Qəzənfər müəllimin Füzuliyə dair araşdırmalarında, dahi insanları üzə çıxarmaq sahəsindəki tədqiqat işlərində o xətti davam etdirən bir şəxsiyyət olduğunun şahidi oldum. Bunların fonunda çox danışmayacam, bircə şeyi bildirəcəyəm. Mən İlyas müəllimlə çox söhbət eləmişəm. O, əxlaqlı insanlardan danışanda öndə gedən bir insan kimi Qəzənfər müəllimi qeyd edirdi. Bu gün bizdə cəmiyyətin aşınması gedən bir dövrdə bu cür insanların həyatının tədqiq edilməsi, araşdırılması, gəncliyə təbliğ olunması çox önəmli bir şeydir. Əxlaq əldən gedərsə, hər şey əldən gedə bilər. Ona görə də Qəzənfər müəllimin bu əxlaq örnəyi və onun ailəsində, ictimaiyyətdə tutduğu mövqe olduqca önəmlidir. Elm də, ədəbiyyat da – bu şeylər hamısı nisbi şeylərdir, ancaq əxlaq dəyişməyən, əbədi, nə dəbdən düşməyən, nə də dəbə minməyən, nə dəbdən salınmayan, bir ölçüyə qoyulmayan bir şeydir. Öz ölçüsü, nizamı var. Ona görə də böyük bir ağsaqqal kimi Qəzənfər müəllimdən öyrənəcəyimiz çox şeylər var. Qəzənfər müəllim bu mənada əbədiyyəti düşünən, tarixdə kimin xatirində nə cür qalmağı düşünən bir insandır. Qəzənfər müəllim, bu uğurlara görə mən sizi ürəkdən təbrik edirəm.

Mən də Sizə bir neçə şeir həsr etmişəm. Onlardan birini oxumaq istəyirəm:

Qəzənfər Paşayev bir müdrik insan,
Gör neçə ölkələr dolanıb gəlib.
Mosuldan, Ərbildən, Kərkükdən keçib,
Tarixin içinə boylanıb gəlib.

Dərdini gördükcə ağır ellərin,
Taxtı taxt dolanmış fağır ellərin,
Ayrılıq qəlbini sıxıb ellərin,
Dərdini duyduqca içindən talanıb gəlib.

Ömrümün hər anı dönüb mənaya,
Türk eli şam olub o pərvanəyə,
Baş vurub hər yurda, hər bir xanəyə,
Sönmüş ocaqlara qalanıb gəlib.

Dəclədə, Fəratda xəyala dalmış,
İtmiş doğmaların sorağın almış.
Tarixin altında pas atıb qalmış
Neçə həqiqətə yol alıb gəlib.

O sübut etdi ki, Kərbalasında,
Füzuli dəfn olub öz obasında,
Həqiqət uğrunda, söz qovğasında
Türkün tarixinə calanıb gəlib.

Daim cavabdehdi xalqı önündə,
Yandırıb kiminsə şamı sönəndə,

Yas tutub ellərin yaslı günündə,
Toyda qol qaldırıb şadlanıb gəlib.

Böyüyə, kişiyə örnək, ibrətdir,
Ar-namus bilənə namus, qeyrətdir,
Dostluqda tükənməz şeir, ülfətdir,
Loğmanın şerində hallanıb gəlib,
ballanıb gəlib.

Seyfəddin Rzasoy: Professor Qəzənfər Paşayevin – Azərbaycan hümanitar-filoloji fikrinin bü görkəmli nümayəndəsinin ömür yolu bu gün burada bir kitab kimi oxundu. Muxtar müəllim bu kitabı fəsillərə böldü: folklorşünaslıq, ədəbiyyatşünaslıq, dilşünaslıq, tərcüməçilik, mətnşünaslıq, insanşünaslıq və s. Bu fəsillərin hər biri haqqında burada iştirak edən insanlar öz sözlərini dedilər. Və Qəzənfər müəllimin neçə bir çoxyönlü, çoxşaxəli fəaliyyətə sahib alim olması burada bir daha canlandı. Təbii ki, bizim hər birimizin məşğul olduğu konkret elm sahəsi var. Biz öz elmi fəaliyyətimizdə sonralar digər oxşar, qovuşuq sahələrə meyllənə bilsək də, bir sahə – əsasında, üzərində, bazasında yetişdiyimiz, formalaşdığımız sahə hər birimiz üçün profil, aparıcı sahə olaraq qalır. Lakin Qəzənfər müəllimin fəaliyyətində humanitar-filoloji elmin bütün əsas sahələri mükəmməl şəkildə ifadə olunub. Bu mənada, Qəzənfər müəllimin bu çoxyönlü fəaliyyətini konkret bir terminlə ifadə etməkdə mən də çətinlik çəkdim. Ancaq prof. İsrafil Abbaslı öz çıxışında Qəzənfər müəllimi «Azərbaycanşünas» adlandırmaqla bu çətinliyi mənim üçün aradan qaldırdı. Azərbaycanşünas olmaq milli elmi düşüncə tarixi-mizdə hər kəsə nəsib olan məqam deyil. Qəzənfər müəllim bu

məqama gedən yolun qaranlıq, çətin, dar çığırlarına öz ömrünün illərini yandıraraq işıq salıb, bu zirvəyə qəlbindəki vətən və millət sevgisinin işığı ilə qalxa bilib. Elə bu səbəbdən burada prof. Qəzənfər Paşayevin zəngin və çoxşaxəli fəaliyyətinin filoloji profilli institutlarda elmi şəkildə öyrənilməsi haqqında şair-naşir Əlirza Xələfli tərəfindən səsləndirilmiş təklifi çox faydalı sayıram.

Əlbəttə, Qəzənfər müəllim haqqında burada çox dəyərli sözlər, bənzətmələr, epitetlər dedilər. Təbii ki, bunlar insanların onun haqqında demək istədiklərinin hamısı deyil. Sözlərin çoxu İslam Sadığın bir az əvvəl dediyi kimi, ürəklərdə qaldı. Mənim də ürəyimdə bir sözüm var. Qəzənfər müəllimin hər bir azərbaycanlı kimi mənim də ömür yoluma ilk dəfə «Altı il Dəclə-Fərat sahillərində» kitabı ilə işıq tutan bu fəaliyyətini nə üçünsə arxeoloqun taleyinə bənzədirəm. Arxeoloqlar bütün elmi fəaliyyətləri boyunca hansısa mədəni layı tapmağın ümidi ilə yer qazırlar. Belə bir layı tapan arxeoloqun adı həmin layla birgə elmin tarixinə yazılır. Prof. Qəzənfər Paşayev Azərbaycan milli düşüncə tarixində «Kərkük-Türkman» layını üzə çıxarmış və bununla da milli düşüncəmizin sərhədlərini etnik kamilliyin tarixi hüdudlarına qədər genişləndirmiş alimdir. Bu mənada, onun xidmətləri əvəzsizdir və belə hesab edirəm ki, prof. Qəzənfər Paşayevin alim və insan ömrü Azərbaycan elm tarixində alimliyin və insanlığın nümunəsi kimi əbədi qalacaqdır.

Qəzənfər Paşayev: Mən yetmiş illik yubileyimi keçirmədim. Bir az zəif idim, qorxdum ki, tərifləyələr, ürəyim yatar. Ancaq indi yaxşıyam, özümü yaxşı hiss edirəm. Ona görə dedim, keçirək. Zarafat öz yerində qalsın, mən çox minnət-

daram, Muxtar müəllim, sizə, Əlyazmalar institutunun direktoru Paşa Əlioğluna – bizim öz sağlığında və bu gün də sevilən görkəmli şairimizin oğluna. Paşa Əlioğlu özünü cəmiyyət içində ləyaqətlə, çox gözəl mədəniyyətlə, ziyalılıqla göstərir.

Deyim ki, mənim bütün yubileylərimi Folklor İnstitutu keçirib. Yaxşı yadımdadır, hətta akademiyanın o dəyirmi salonunda beynəlxalq konfrans keçirilirdi. Orda yüksək səviyyədə mənim yubileyim qeyd olundu. Ona görə də Folklor İnstitutunu heç vaxt unutmuram. Mən bu institutu çox istəyirəm, yəqin, bu münasibət qarışıqlıdır. Mən burda hiss edirəm ki, mənə münasibət mən istədiyim qədərdir, heç də əksik deyil. Mən sizə təşəkkür edirəm.

Mən bütün çıxış edənlərə o səmimi sözlərə görə minnətdarlığımı bildirirəm. Hafizəmdən çıxmasın deyə mən o sözləri qeyd etdim ki, biblioqrafiyam çıxanda o dəyərli sözləri mütləq verəcəyəm. Həqiqətən də, çox dəyərli sözlər, çox dəyərli fikirlər var ki, mən yeni eşitdim onları. Məsələn, Muxtar müəllim deyəndə ki, Qəzənfər müəllim hər kitabı tərcümə eləmirdi, haqlı idi. Bəli, mən "Axundovun ədəbi tənqidi" adlı kitabı tərcümə eləmişəm. Bu kitabı 1989-cu ildə Yaşar müəllim verdi. Amerikada çıxmış bir kitabdır və möhtəşəm bir kitabdır. Axundovu qaldırıb göylərə ki, o, Şərqdə təkcə dramaturgiyanın əsasını deyil, tənqidin əsasını qoyan bir şəxsdir. Bunu bizdə demirdilər çox vaxt. Bu kişi dedi, mən də onu tərcümə elədim. Muxtar müəllim də bunu vurğuladı. Hamınız gözəl fikirlər dediniz, mən yazmışam. Yəqin ki, bir kitabda çap olunacaq. Mən heç nəyi elə-belə qoymuram qalsın, qalmır, biləsiniz. Mən hamınıza təşəkkür edirəm.

Mənim 60 illik yubiley tədbirlərim Folklor İnstitutunda başladı, o vaxtkı Elm Mərkəzində. Bax, bu cavan oğlan – Ne-

mət burda əyləşib, saz çalırdı, xalq valeh olmuşdu. Bu gün də, yəqin, saz çalacaqsan, Nemət, bu da yubileyimdi mənim.

Mən bir 10 il Bakı Dövlət Universitetində işlədim, oranın professoru oldum. Mənim yubileyim orada da keçirildi. Keçiriləndən sonra xahiş elədim, dedim ki, avtobuslar aşağıda dayanıb, hamımız gedəcəyik Gülüstan sarayına. Allah mənə o qisməti verdi. Mənim həmişə ruzum səmadan gəlir, yəqin, o ulduz mənə o payı da verib, ay İslam Sadıq. Məni sizi onda daha çox istəyəcəyəm ki, hamımız bir yerdə bu saat çıxıb Nizami küçəsiynən gedəcəyik aşağı, orda «Sultan» restoranı var, ora. Kim getməsə, vallah, ürəyimdə niskil olacaq, inciyəcəm. Bax bunu deyirəm sizə. Muxtar müəllim mən sizə çox təşəkkür edirəm, bütün bu diqqətinizə görə, qayğınıza görə, icazə verəsiniz sizi öpüm. Sağ olun.

Muxtar Kazımoğlu: Qəzənfər Paşayevin tərcümə elədiyi əsərlərdən birinin adı belədir: «Necə yaşayasan, yüzü haqlayasan?» Bu başlığı Qəzənfər Paşayevin bizə verdiyi bir sual kimi qəbul etsək, onda gərək həmin suala cavab verək. Və deyək: «Qəzənfər müəllim, bu vaxta qədər necə yaşamısınızsa, elə də yaşayın!»

13 dekabr 2012-ci il

Qəzənfər Paşayev – 75.
Bakı, "Elm və təhsil", 2013.

Nəşriyyat direktoru:
Nadir Məmmədli

Nəşriyyat redaktoru:
Səbinə İsayeva

Kompyuterdə yığdı:
Səadət Əliyeva

Kompyuter tərtibçisi və
texniki redaktoru:
Ramin Abdullayev

Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı: №1
Həcmi: 90 səh.
Tirajı: 500

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Redaksiya-nəşr bölməsində yığılmış, səhifələnmiş,
"Elm və təhsil" NPM-də ofset üsulu ilə
hazır deopozitivlərdən çap olunmuşdur.